**Rafiq Musayev**

# Alimin yaradıcılıq meridianları

**“MM-S” müəssisəsi**
**Bakı -2020**

Redaktor: Filologiya elmləri doktoru,  professor
**Teymur Əhmədov**

Rəyçi: dosent **Misgər Məmmədov**
Korrektor: **Xoşqədəm Musayeva**
Rəssam: **Səkinə Z.Bağırova**

**Rafiq Musayev. Alimin yaradıcılıq meridianları.**

Bu kitabda görkəmli ədəbiyyatşünas alim filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun həyat və yaradıcılığından bəhs olunur. Əsərdə dünyanın ondan artıq ölkəsində kitabları nəşr olunmuş, bir neçə beynəlxalq Akademiyaların, Cəmiyyətlərin üzvü olan bu zəhmətkeş alimin yaradıcılığı təhlil edilmiş, xarici və Azərbaycan alimlərinin onun haqqında məqalələri və fikirləri öz əksini tapmışdır.

## Alimin həyatı

Azərbaycan Dillər Universitetinin uzun illər kafedra müdiri olmuş (Praktik fransız dili, Qafqazşünaslıq, Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müdiri), Nyü-York Elmlər Akademiyasının üzvü, Özbəkistan Turan Elmlər Akademiyasının akademiki, Parisdə fəaliyyət göstərən Viktor Hüqonun Dostları Cəmiyyətinin üzvü, Türk Dünyası Araşdırmalar Beynəlxalq Akademiyasının akademiki, Almaniyanın Hanovver şəhərində fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyasının akademiki, Filologiya elmləri doktoru, professor Əsgər Məmməd oğlu Zeynalov.

İndi bu ad dünyanın bir çox ölkələrində yaxşı tanınır. Onun indiyənədək Sankt-Peterburqda (2011), Moskvada (2013), ABŞ-da (3 kitabı 2016), Fransada (2015), Almaniyada (2016), İngiltərədə (2016), Kanadada (2016), Hindistanda (2017), İsveçdə (2018), kitabları işıq üzü görmüş, İranda, Rusiyada, Türkiyədə, Serbiyada 10 məqaləsi nəşr edilmişdir. O, Bakıda, İrəvanda, Almaniyada, Türkiyədə, Fransada keçirilən bir sıra beynəlxalq konfrans, qurultay və tədbirlərdə respublikamızı layiqincə təmsil etmişdir.

Dünya şöhrətli rus alimləri Baris Starkov, Rudolf İvanov, fransız alimləri Jan Lui Bakke Qrammon və Arno Laster azərbaycanlı alimin yaradıcılığını yüksək qiymətləndirmişlər. Bosniya-Hersoqovinalı alim, akademik Enes Kariç 2017-ci il iyul ayının 1-də "Preporod" qəzetində "Viktor Hüqo Məhəmməd peyğəmbər haqqında" məqaləsində bir neçə dəfə professor Əsgər Zeynalovun yaradıcılığına istinad etmişdir.

Əsgər müəllim Fransada dörd dəfə təkmilləşmə kurslarında olmuş və həmin dövlətin sertifikatlarını almışdır. Eyni zamanda 2009 cu ildəTürkiyədə keçirilən Beynəlxalq elmi konfrasda çıxış etmiş və həmin dövlətin sertifikatını almışdır. Fransada onun haqqında bir neçə məqalə dərc olunmuşdur. Türk Dünyası

Araşdırmalar Beynəlxalq Akademiyasının Beynəlxalq Qızıl medalına layiq görülmüşdür.

Əsgər müəllim beynəlxalq miqyasda bu qədər şöhrət qazanmasına baxmayaraq tələbəlikdə nə qədər sadə idisə bu gün də elə sadədir. Onun iş yerində stolunun üstündə müqəddəs "Qurani-Kərimin" "Loğman" surəsindən bir kəlam var: "Heç zaman təkəbbürlü olma. Allah təkəbbürlü adamları sevmir".

Əsgər müəllim haqqında çoxlu məqalələr, iki kitab yazılıb. Qeyd edim ki, onu ən yaxşı tanıyıyanlardan biri də mənəm. Çünki 1970-1974-cü illərdə APXDİ-də bir kursda, bir qrupda oxumuşuq. Birlikdə laborant işləmişik, sonra da müəllim kimi bir kafedrada çalışmışıq. Buna görə də onun haqqında bir kitab yazmaq qərarına gəldim.Əsgər müəllim barədə yazmaq mənim üçün çox xoşdur. Mən Əsgər müəllim haqqında saatlarla danışaram və yazaram, yorulmaram. Təbii ki, bunun müəyyən səbəbləri var. Əsas səbəblərdən biri də odur ki, Əsgər müəllimi Azərbaycan Dillər Universitetində məndən yaxşı tanıyan, ona bələd olan adam çətin tapılar. Uzun illərdi ki, mən onu tanıyıram, onunla ünsiyyətdəyəm və dostluq edirəm. Gəncliyimin ən gözəl çağları Əsgərlə birgə keçib. Əsgər kimdir? İndi onun haqqında söhbətə başlayıram.

Zeynalov Əsgər Məmməd oğlu 1951-ci il sentyabr ayının 27-də İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndində anadan olmuşdur. Kənd səkkizillik məktəbi bitirdikdən sonra vaxtilə böyük ədib Cəlil Məmmədquluzadənin dərs dediyi Uluxanlı (Zəngibasar) orta məktəbini bitirmişdir.1974-cü ildə APXDİ-nin fransız dili fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində oturub birgə söhbət edəndə mütaliə etdiyi kitablardan mənə danışardı. Əsgər söhbət əsnasında mənə deyərdi ki, yay tətili, yaxud istirahət günlərində 5-6 kitab götürüb təbiətin qoynuna gedər və bütün günü kitab oxuyardı. Yalnız axşamüstü evə qayıdardı. O, tələbəlik illərində də çoxlu mütaliə edirdi. Təzə

hansı kitab nəşr olunurdusa onu alıb oxuyardı. Tələbələr Əsgəri soruşanda deyirdik ki, birinci kitabxanaya baxın. Mən Əsgərlə tələbə yoldaşı olmuşam və sonra yenə birlikdə bir kafedra da həmkar kimi çalışmışıq. Onun çalışqanlığı elmdə böyük nailiyyətlər qazanmağa stimul verib. Mən bu səmimi, qayğıkeş, xeyirxah insan, sözün əsl mənasında böyük alim və tədqiqatçı olan professor Əsgər Zeynalov haqqında öz ürək sözlərimi , həmçinin onun yüksək insani keyfiyyətləri barədə söhbət açmaq istəyirəm. Bunu yazmaq məni məmnun edir, çünki mən Əsgər müəllimi gənclik illərindən tanıyıram. Onunla bir qrupda təhsil almışam, həm də dostu olmuşam. Biz 169-cu qrupda təhsil alanda o, öz səmimiyyəti,mehribanlığı ilə seçilirdi. Əsgər tarix, ədəbiyyat və dil dərslərində çox fəal olurdu, müəllimlərə maraqlı suallar verir və onu düşündürən bir çox məsələlərə aydınlıq gətirməyə çalışırdı. O, dərslərdə çox zaman müəllimləri heyrətləndirməyi bacarırdı. Məsələn, yaxşı xatırlayıram ki, bizə Azərbaycan tarixindən dərs deyən Tərlan müəllimin dərsində Əsgər Midiya dövləti, Atabəylər sülaləsini xronoloji ardıcıllıqla elə sadalamışdı ki, hətta Tərlan müəllim onun cavabına təəccüblənmiş və məmnun qalmışdır.

Əsgər Azərbaycan musiqisini və muğamlarını çox sevirdi. O, Qulu Əsgərov, Əlibaba Məmmədov, Süleyman Abdullayev, Rübabə Muradova, Elmira Rəhimova, Teymur Mustafayev, Nəzakət Məmmədovanın konsertlərinə müntəzəm olaraq gedirdi. O, ən çox Sabir Mirzəyevin "Çahargah"ına, xüsusilə "Bəstə -Nigar" şöbəsinə qulaq asmağı sevərdi. Çox vaxt Əsgər evdə tapılmayanda bilirdilər ki, Əsgər çox güman ki, ya "Leyli və Məcnun"a baxmağa, ya da Sabir Mirzəyevin konsertinə gedib. Əsgər "Leyli və Məcnun", "Əsli və Kərəm", "Gəlin Qayası" və "Şah İsmayıl" operalarına həvəslə baxardı. O, həmçinin Dram teatrının və Musiqili komediya teatırının tamaşalarına da həvəslə gedirdi. Bir dəfə qrupda tələbə qızlardan biri Fəxrəndə Balayeva Əsgər

haqqında bildirdi ki, Əsgər çox savadlıdır və gələcəkdə böyük alim olacaq. Əsgərin işıqlı gələcəyi ,gənclik çağından çoxumuza aydın idi. O, boş vaxtlarında kitabxanalara gedərdi, tez-tez o, M.F.Axundov adına kitabxanaya gedir, orada dünya yazıçılarının əsərlərini mütaliə edirdi. Tələbə vaxtları da çoxlu kitablar alırdı. Bir haşiyə çıxmaq istəyirəm. Dəqiq bilirəm ki, onun evində hal-hazırda zəngin kitabxanası var və burada dünya ədəbiyyatından və Azərbaycan ədəbiyyatından saysız-hesabsız kitablar var.

Əsgər həm də xeyirxah, qayğıkeş, səmimi bir insandır.Mən bunu ilk illərdə hiss etmişəm. O, tələbəlik çağından çətinlikdən və maneələrdən qorxmurdu, hətta xəstəlikdən də qorxmur, mübarizə aparmağı bacarırdı. Tələbə vaxtı Əsgər yataqxanada qalırdı, onunla bir otaqda başqa bir kursda oxuyan Gülağa Atakişiyev adlı tələbə yoldaşı qalırdı. O, mənə danışmışdı ki, bir gün biz Əsgərlə möhkəm xəstələnmişdik, soyuqlamışdıq. Mən ağrılardan şikayət edirdim. Bu vaxt qəfildən, gözlənilmədən Əsgər ayağa durdu və yumruğunu stola vurdu və dedi ki, mən xəstə deyiləm. Onun belə özünə güvənli olmağı mənə də güc verdi və mən də ayağa durdum, biz tezliklə sağaldıq.

Bir məsələni də xatırlatmaq istəyirəm ki, o vaxt bizə dərs deyən müəllimlərin arasında xarici vətəndaşlar da vardı. Bu ənənə elə indinin özündə də davam edir. Yadıma gəlir ki, bizə fransız ədəbiyyatından bir gənc fransız xanımı dərs deyirdi. Onun adı səhv etmirəmsə, Elen Vazel idi. O, bizə fransız ədəbiyyatından, yazıçı və şairlərdən mühazirələr oxuyurdu. Dəqiq yadımdadır ki, Əsgər bir dəfə ədəbiyyat dərsində həmin xanıma fransız və eləcə də dünya ədəbiyyatının nəhəng yazıçıları Hüqo və Volterdən suallar vermişdir. Bu suallar çox məntiqli və düşündürücü olduğuna görə xanım Vazelin xoşuna gəlmişdir. Xanım Vazel onun sullarına aramla cavab verib, diqqətli və çalışqan olduğuna görə Əsgərə xüsusi minnətdarlıq etmişdir. Bir dəfə Əsgər dərsdə Elen Vazeldən soruşdu ki, sizcə fransız ədəbiyyatında ən böyük

yazıçı kimdir? O, belə cavab verdi: Stendal. Əsgər dedi ki, bəs Hüqo? Elen Vazel belə cavab verdi: Fransada deyirlər ki, Hüqo fransız ədəbiyyatının milyarderi, Stendal isə şahıdır. Sonralar bu dialoq Əsgərin monoqrafiyalarında öz əksini tapdı, O, Hüqo haqqında kitablardan birinin adını belədə adlandırdı: "Hüqo-fransız ədəbiyyatının milyarderi".

Mən həmçinin tələbəlik illərində onun necə fəal ictimaiyyətçi və təbliğatçı olduğunu görmüşəm. O, tələbə yoldaşlarına Azərbaycan filmlərinə və tamaşalarına baxmağı təbliğ edirdi, özü də tez-tez bu filmlərə və tamaşalara baxmağa gedirdi. O, tələbə inşaat dəstəsində də çox fəal iştirak etmişdir. Əsgər demək olar ki, bir ay yarım inşaat dəstəsində işləmişdir və xüsusi mükafata layiq görülmüşdür. Hələ tələbəlik illərində müntəzəm olaraq respublika qəzetlərini oxuyur və gündəlik mətbuatla maraqlanırdı. Əsgər tez-tez qəzetlərdə dərc olunan məqalələr barədə fikir bildiridi. Qəzetlərdə daha çox tarixə, ədəbiyyata və dilçiliyə aid olan məqalələri axtarıb tapır, onları həvəslə oxuyurdu. Fikir verirdim ki, Əsgər aldığı təqaüdün çox hissəsini kitablara və qəzetlərə həvəslə xərcləyirdi və daim mütaliə ilə məşğul olurdu. Elə bu mütaliələr sonralar onun elmdə nailiyyətlər qazanmasına və hərtərəfli savadlı olmasına təsir etdi. Biz tələbə olarkən dərslərimizi 1 May küçəsindəki üçmərtəbəli binada keçmişik, indi hal-hazırda bu bina qəzalı vəziyyətdədir və istifadəyə yararsızdır. O vaxt "Nizami" kinoteatrı bizim dərs oxuduğumuz binaya çox yaxın idi. Bəzən elə olurdu ki, Əsgər qrup yoldaşlarına deyirdi ki, kinoteatrda Azərbaycan xalqının tarixi qəhrəmanlığından bəhs edən yaxşı filmlər nümayiş etdirilir. Əsgər uşaqları belə maraqlı filimlərə baxmağa dəvət edirdi. Tələbə yoldaşlar ona qoşulub belə filmlərə baxmağa gedirdilər və filmdən yaxşı zövq alırdılar. Sonra biz Əsgərlə birlikdə bu filmləri müzakirə edirdik, bu da tələbələrin milli vətənpərvərlik ruhunda tərbiyə almasına kömək edirdi.

Məndə olan məlumata görə Əsgər hələ orta məktəbdə oxuyanda iti hafizəyə, yaddaşa malik olmuşdur. Orta məktəbdə oxuyarkən əsl savadlı şagird olduğunu və onun böyük gələcəyi olacağına həm müəllimləri, həm döğmaları, həm də doğulub boya-başa çatdığı kənd camaatı böyük ümid edirdilər və buna inanırdılar. Çünki Əsgər çox vaxt dərslikləri və əlavə kitabları özü ilə götürər və saatlarla təbiətin qoynunda bu kitablarla baş-başa qalardı. Beləliklə o, oxuduğu kitabların dərinliklərinə baş vuraraq onların sirlərinə yaxından bələd olurdu. Əsgər hələ orta məktəbdə oxuyanda şeirlər yazırdı.Onun 5-ci sinifdə oxuyarkən yazdığı "Balaca şair" şeirini demək olar ki, bütün sinif yoldaşları əzbər bilirdi və onu hamısı "şair" deyə çağırırdılar.7-ci sinifdə oxuyanda onun 9 şeiri məktəbin divar qəzetində öz əksini tapmışdı.

Əsgər müəllim, elə insandır ki, heç kimə əziyyət verməyi xoşlamır. Belə ki, ali məktəbdə oxuyarkən gedib tələbə yataqxanalarında və yaxud kirayə evlərdə qalmış, amma şəhərdə yaşayan əmilərinin evlərində qalıb onlara əziyyət vermək istəməmişdir. Şəhərdə yaxşı həyat təcrübəsi əldə etdi, bu təcrübəni əldə etməkdə əmiləri ona çox kömək etdilər və dəstək oldular. Ona görə də heç kim ona mənfi təsir göstərə bilməmişdir. Özü isə yaxınlarının və dostlarının əziyyətini çəkməyə, təmənnasız olaraq insanlıq xatirinə yaxşılıq etməyə hazır olan bir insandır.

Əsgər 1969-cu ildə orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Pedaqoji institutunun filologiya fakültəsinə vermişdir. Bütün imtahanlardan keçsə də, lazımi bal toplaya bilmədiyi üçün, instituta qəbul ola bilməmişdir. Bundan sonra o, Azərbaycan Xarici Dillər institutunun hazırlıq şöbəsində oxumuşdu. Orada oxuyarkən yenicə müdafiə etmiş Adil Babayev (sonralar o, elmlər doktoru, professor oldu), Əlimuxtar Ağayev (sonralar o, elmlər namizədi dosent kimi bizimlə eyni kafedrada çalışdı) dərs deyir. Hazırlıq kursu Əsgərin hafizəsində

xoş xatirə kimi qalmışdı. Adil müəllimin Füzulinin "Leyli və Məcnun"undan böyük bir hissəni, Səməd Vurğunun "Vaqif" dramını əvvəldən sonadək əzbər deməsini Əsgər bu gün də dönə-dönə xatırlayır. Onu da diqqətə çatdırmaq lazım gəlir ki, Əsgər hələ orta məktəbin 9-cu sinfində təhsil alarkən onun ədəbiyyat müəllimi Rəfiqə müəllimənin hazırladığı tədbirdə Səməd Vurğunun "Vaqif" dramında həm İlyas, həm də Vidadi, Salam Qədirzadənin "Şirinbala bal yığır" əsərində institut müəllimi, professor rolunu oynamışdır.

Əsgərgilin kəndində məktəb səkkizillik olduğu üçün, o, 9-10-cu sinifləri rayon mərkəzində-Zəngibasarda oxumuşdu. Əsgər Zəngibasar məktəbindən danışarkən həmişə deyir ki, o zaman bu məktəbdə oxumaq ali məktəbdə oxumaqdan çətin idi. Çünki ətraf beş kənd məktəbinin ən yaxşı oxuyan şagirdləri yuxarı sinifləri davam etdirmək üçün bu məktəbə gəlirdilər. 9-cu sinifə təxminən 110 şagird gəlirdi, 10-cu sinifə 60 şagird ancaq qalırdı. Çoxu oxuya bilməyib çıxıb gedirdi.

Əsgər "Şirinbala bal yığır" əsərinin tamaşası ilə bağlı maraqlı bir epizod danışır: "Ədəbiyyat müəllimimiz Rəfiqə Abbasova Salam Qədirzadənin "Şirinbala bal yığır" əsərini tamaşaya hazırlayarkən 10-cu sinif şagirdləri Müslüm və Gültəkin Şirinbalanın atası və anası rollarını, bibim oğlu Cavidə sürücü və mənə isə inistitut müəllimi, professor rolunu tapşırdı. Tale elə qismət etdi ki, Müslümlə Gültəkin ailə qurdu, bibim oğlu sürücü, mən isə institut müəllimi, professor oldum. Sanki ulu Tanrı bizim qismətimizi o zaman müəyyənləşdirmişdi".

1974-cü ildə biz ikimiz də ali məktəbi bitirdik. Mən təyinatımı Qubadlı rayonuna aldım və orada işləməyə başladım. Məni indi də bir hiss, bir fikir həmişə incidir ki, o cür füsünkar gözəlliyi və təbiəti olan bir rayon mənfur düşmənlərin tapdağı altında qalmışdır. Amma Əsgər oz təyinatını Dağlıq Qarabağa aldı və təxminən bir il orada işlədi.  Orada işləyərkən də çox fəal olmuşdur,

öyrəndiyi fransız dilini böyük sevgi ilə məktəb şagirdlərinə öyrədir və bundan xüsusi zövq alırdı.

Əsgər Dağlıq Qarabağda Ağdərə rayonunun Manikli və Xatınbəyli kəndlərində işləyərkən, nə qədər təəccüblü olsa da fransız dili ilə yanaşı kimya dərsini də tədris etmişdi. Bir dəfə dərs hissə müdiri gəlib Əsgərin dərsini dinləyir. Əsgər isə heç bir qeydiyyata baxmadan reaksiyaları aparır, əmsalları düzəldir. Dərsin müzakirəsindən sonra tədris hissə müdiri Əsgərə deyir: "Kimya müəllimimizi ancaq tapmışıq, səni heç yana buraxan yoxdu". Əsgər isə deyir ki, bunun üçün Yuxarı Necili kənd məktəbində və Uluxanlıda mənə dərs demiş kimya müəllimlərimə borcluyam. Fətullah Süleymanova və Hüseyn Həsənova. Bir il orada işlədikdən sonra öz doğma kəndinə qayıdır, həm bitirdiyi Yuxarı Necili kənd orta məktəbində, həm də qonşu Dəmirçi kənd orta məktəbində fransız dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

Haşiyə: Əsgər Zəngibasar (Uluxanlı) rayonunun Dəmirçi kənd orta məktəbində müəllim işləyərkən bir gün dərsini demək üçün sinif otağına daxil olub lövhədə "Ətalət" yazıldığını görüb deyir: "Kim deyər: ətalət nəyə deyilir? Kim desə "5" yazacam". Şagirdlərdən Fatma adında bir qız əlini qaldırıb cavab vermək istədiyini bildirir. O, uzun bir tərif deməyə başlayır. Əsgər deyir: "Bu nədir? Əyləş!" Bu zaman yerdən səs gəlir: "Guya özü bilir ha!! Əsgər bunu eşidib deyir: "Kimdir o sözü deyən, ayağa qalxsın". Həmin şagird səsini çıxarmır. Əsgər yenidən deyir: "Kimdir o sözü deyən, ayağa qalxsın, qorxmasın". Uca boy bir oğlan ayağa qalxıb "mənəm" - deyir. Əsgər Nyutonun qanunun üçünü də əzbər söyləyir, işarələri də qeyd etdikdən sonra, həmin oğlan "Zalım oğlu doğurdan da kəllədir" sözlərini yavaşca söyləyərək yerində əyləşir. Bu zaman Əsgərin 24 yaşı vardı...

Gənc müəllim kimi tez bir zamanda böyük hörmət qazandı. Qonşu kənddə bütün ailələrdə gənc fransız dili müəlliminin

necə gözəl dərs deməyindən, necə ağır təbiəti olduğundan danışılırdı. Bir il işlədikdən sonra hərbi xidmətə çağırılır.Ulan-Ude şəhərində hərbi xidmətdə olarkən belə şagirdləri onu unutmur, öz sevimli müəllimlərinə məktub yazırdılar. Hərbi xidmətdə olarkən onun haqqında hərbi dairənin qəzetində məqalə dərc olunur. Hərbi xidmətdə də vaxt tapan kimi mütaliə və tərcüməçiliklə məşğul olurdu. Hərbi  xidməti başa vurduqdan sonra da  öz oxuduğu məktəbdə pedaqoji  fəaliyyətini davam etdirdi.

Bu dövrdə artıq onun elmi fəaliyyəti başlandı. İş elə gətirdi ki, professor Teymur Əhmədov və mərhum professor Mirəli Seyidov Əsgərin elmi rəhbərləri oldular. O, çox maraqlı və bu gün üçün də tarixi əhəmiyyət kəsb edən elmi əsər işlədi və bu əsərin adı "Azərbaycan bayatıları erməni qaynaqlarında" adlanırdı. Təxminən 10 il erməni arxivlərində araşdırmalar apardı, gözəl bir dissertasiya ortaya çıxartdı. Əsgər erməni mənbələrində tədqiqat aparan sonuncu Azərbaycanlı oldu. Həmin arxivlərdə ermənilərə məxsus olduğu hesab edilən 550 bayatının məhz bizə məxsus olduğunu, ümumiyyətlə, ermənilərin hec vaxt bayatıları olmadığını  dəlillər gətirərək sübut etdi.

1988-ci ildən deportasiya olunduqdan sonra Əsgər Abşeron rayonunun Xırdalan qəsəbəsində məskunlaşdı. Bu dövrdə Dağlıq Qarabağla bağlı münaqişələr və müharibə başlandı. Həmin ərəfədə Əsgərin böyük zəhməti bahasına başa gətirdiyi bu elmi işi müxtəlif bəhanələrlə müdafiəyə buraxılmırdı. Hətta həmin elmi işin təsdiq edilməsi üçün Moskvaya və Ermənistan Elimlər Akademiyasına müraciət olunmuşdur. Qəribə də olsa Ermənistan Elimlər Akademiyası bu müraciətə müsbət cavab verdi. Bu dəfə növbəti bəhanə mövzunun adının dəyişdirilməsi oldu. Mövzu "Azərbaycan bayatıları Qafqaz regionunda" adlandırıldı. Əsgər müəllim mövzunun adını əhatə etmək üçün yenidən arxivlərə, kitabxanalara üz tutmalı oldu. Nəhayət o 1991-ci ilin noyabrında namizədlik  dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi.

Mənə elə gəlir ki, Əsgər müəllim bu dissertasıyanı yazmaqla böyük vətənpərvərlik göstərmişdir, ona görə ki, o, heç nədən çəkinmədən, qorxmadan mənfur düşmənlərimiz olan ermənilərdən Azərbaycan xalqına məxsus olan bayatıları onlardan almış və subut etmişdir ki, bu bayatılar Azərbaycan xalqına məxsusdur.

Ermənistandan deportasiya olunduqdan sonra o, bir neçə ay işsiz qaldı. Bir təsadüf, eyni zamanda səmimi, qeyrətli insan Qorxmaz müəllimin xeyirxahlığı nəticəsində APXDİ-na laborant vəzifəsinə işə düzəldi. Sonradan o bu universitetdə pillə-pillə ucalmağa başladı. Əvvəlcə müəllim, sonra baş müəllim, dosent, kafedra müdiri, filologiya elmləri doktoru professor oldu.

Bir dəfə belə bir hadisə olmuşdur, mən fransız dilinin üslubiyyəti kafedrasında baş müəllim işləyirdim, Əsgər müəllim isə Praktik fransız dili kafedrasına yenicə müdir seçilmişdi. Məndə növbəti beşillik seçki idi. Təcili şəkildə elmi işlər üçün məqalə lazım oldu,onun yanına getdim. Çox mehribanlıqla məni qəbul etdi. Əsgərə dedim ki, mənə təcili olaraq seçkim üçün məqalə nəşr etdirmək lazımdır. O,mənə dedi ki, heç narahat olma mən sənə kömək edəcəyəm. Sən sabaha bir məqalə hazırla və sabah biz birlikdə nəşriyyata gedərik. Elə də oldu, axşama qədər bir məqalə hazırladım və səhərisi gün nəşriyyata getdik. Onunla birlikdə məqaləni nəşrə verdik.

Mən bu universitetdə 42 ildən çoxdur ki, işləyirəm və 15 ilədək onunla bir kafedrada işləmişəm. O, Praktik fransız dili kafedrasının müdiri, mən isə həmin kafedranın baş müəllimi idim. Əsgər müəllim kafedrada bütün müəllim və laborantlara qarşı diqqətli və qayğıkeş idi. Yaxşı yadımdadır bu kafedrada işləyərkən, orada Abbasova Gülnarə adında baş müəllim vardı. O, böyrək çatışmazlığından əziyyət çəkirdi və tez-tez dializə gedirdi. O, müalicə xərclərini ödəməkdə çətinlik çəkirdi. Bu vaxt Əsgər xeyirxahlıq göstərib ona kömək etdi. Belə ki, müəllimlərin

adına növbə ilə həmkarlar təşkilatına ərizələr yazdırır və alınan pulları müalicəyə kömək məqsədilə ona verirdi.

Yaxşı xatirimdədir, Əsgər müəllim kafedrada iclasları çox yüksək səviyyədə keçirirdi. Həmişə istəyirdi ki, müəllimlər iclasda çıxış etsinlər və öz fikirlərini, təkliflərini bildirsinlər. Hər bir iclasda Əsgər müəllim müəllimlərin qazandığı uğurları xüsusi qeyd edib müəllimlərə daha yaxşı işləmək üçün stimul verirdi. Hansı müəllimin kitabı, məqaləsi nəşr olunurdusa Əsgər müəllim iclasda həmin kitabı və ya məqaləni kafedranın bütün müəllimlərinə göstərər, həmin müəllimi ürəkdən təbrik edərdi. Belə məqamlarda görürdüm ki, bu adam o qədər ürəkdən sevinir ki, sanki bu uğurlar onun özünə məxsusdur. Hərdən elə olurdu ki, mənə zəng edib deyirdi ki, sənin üçün əlavə saathesabı dərs ayırmışam həmin dərslərin cədvəlini götürə bilərsən, narahat olma həmişə sənin yanındayam. Bir dəfə mənə zəng etdi və dedi ki, Bakı Asiya universitetində saathesabı dərs var, yaxşı da maaş verirlər, mən istəyirəm ki, bu dərsləri sən deyəsən. Sözün doğrusu tərəddüd etdim. Mənə bir də zəng etdi və yenə mənim ora getməyimi istədi və təkid etdi. Mənə bildirdi ki, bu işi ona təklif ediblər, lakin kafedra müdiri olduğuna görə boş vaxt demək olar ki olmur, tez-tez iclaslara, elmi şuralara, tədbirlərə gedirəm vaxtım qalmır. O, bu işi mənə məsləhət bildi. Səhəri gün mənimlə birlikdə Asiya universitetinə getdi və məni prorektora təqdim edib dedi ki, Rafiq müəllim mənim kafedramın ən yaxşı müəllimlərindən biridir, gözəl tərcüməçidir, burada yüksək səviyyədə dərsləri  tədris edəcək.

Bir gün Maştağada yaxın qohumumun yas məclisində əyləşmişdik. Məclis bitdikdən sonra atam Əsgərlə həyətdə alma ağacının altında xeyli söhbət etdilər. Məclisdən sonra biz dünyadan köçənlərimizin ziyarətinə getdik. Orada Əsgər öz əmisinin məzarınıda ziyarət etdi .Biz məclisdən sonra evə qayıtdıq. Atam əlini mənim çiynimə qoyub dedi ki, oğul özünə etibarlı dost qazanmısan.

Adam var atasının qəbrinin üstünə getmir, o, əmisinin qəbrini ziyarət edir. Mən inanıram ki, sizin dostluğunuz əbədi olacaq, Əsgərə güvənə bilərsən, o, həqiqətən əsl dost və etibarlı insandır. İllər atamın sözlərinin gerçək olduğunu sübut etdi.

Bütün bunlarla bərabər Əsgər müəllim həm də vətənpərvər insandır, o, bütün varlığı ilə elinə, obasına, millətinə bağlıdır. 1990-cı illərdə müharibə gedərkən ön cəbhədə döyüşən əsgərlərimizlə görüşmək üçün universitetimizin bir neçə tələbə və müəllimi ilə birlikdə Murova, Tərtərə, Ağdərəyə, cəbhə bölgələrinə getmiş, üç gün orada əsgərlərimizlə birlikdə olmuşdur. Əsgər müəllim cəbhədə yaralanan və şəhid olan döyüşçülərimiz barədə 100-dən çox məqalə yazmış, gəncləri belə vətənpərvər olmağa çağırmışdır. O, şəhid Bəxtiyar haqqında material toplamaq üçün Gəncəyə getmişdir, onun ailə üzvləri ilə görüşmüş dəyərli məlumatlar toplamışdır. Əsgər müəllim öz övladlarına da vətənpərvərlik hisslərini aşılamışdır. Hələ uşaqları məktəbə getməyəndə belə 20 Yanvar günlərində Əsgər müəllim səhər tezdən uşaqları ilə Şəhidlər xiyabanına gedər və onların məzarları üstünə qərənfillər qoyardılar.

2001-ci ilin noyabr ayında İrəvanda keçirilən "Cənubi Qafqazda təhsil problemi" mövzusunda Beynəlxalq konfransa Azərbaycandan da nümayəndələr göndərilməli idi.Həmin konfransa yalnız bizim Universitetin müəllimlərndən getməli idi. Universitetdən Əsgər müəllim və Məhəmməd müəllim nəzərdə tutulmuşdu. Əsgər müəllim bu xəbəri eşidəndən sonra heç bir tərəddüd etmədən öz sənədlərini hazırlamağa başladı və sonra konfransa yola düşdü. O, heç bir qorxu bilmədən konfransda iştirak etdi və orada Vətənimizi mənfur düşmənlərimizin qarşısında ləyaqətlə təmsil etdi.

Sözün düzü, mən Əsgər müəllimi böyük tarixçi, ədəbiyyatçı və tədqiqatçı olmağına hələ tələbəlik illərindən şübhə etmirdim. Amma mən onun dünya şöhrətli, tədqiqatçı alim olacağına,

hətta aparmış olduğu öz elmi tədqiqat işləri ilə böyük fransız alimlərini belə təəccübləndirəcəyini təsəvvür etmirdim. Mən bunu təsadüfən demirəm, dəqiq bilirəm ki, o fransız alimlərinin belə ehtiyat etdikləri və böyük ehtiram bəslədikləri, təkcə fransız ədəbiyyatının deyil, dünya ədəbiyyatının böyük klassikləri olan Volter və Hüqonu elə tədqiq etmişdir ki, onlar haqqında elə sanballı monoqrafiyalar yazmışdır ki, hətta fransız alimləri özləri də təəccüblənmişlər. Bir neçə il bundan əvvəl Əsgər müəllim Fransada olarkən fransız ədəbiyyatına aid böyük bir konfrans keçirilirdi, o da həmin konfransda iştirak edirdi. Bu vaxt ona söz vermişdilər, o, konfransda çox gözəl çıxış etmişdir. Dünya ədəbiyyatının klassikləri Hüqonu və Volteri fransızların qarşısında çox dəqiq araşdırmış və təhlil etmişdir. Bu vaxt tədbirin sədri ayağa durub ona demişdir ki, zəhmət olmasa gəlin mənim yerimdə əyləşin, çünki siz mənim yazıçılarımı məndən yaxşı təhlil edirsiniz və onlara dərindən bələdsiniz.

Lakin bu səviyyəyə gəlib çatmaq Əsgər müəllim üçün o qədər də asan olmamışdır. O elmin çox ağır və əziyyətli yollarından keçmişdir. Əsgərin Yuxarı Necili kənd orta məktəbndə yandırdığı "şam"ın işığı hələ çox gənclərin yoluna nur salacaq. Öz elindən, yurdundan, doğma Necili kəndindən ayrı düşmüşdür, lakin onun yazdığı məqalə və kitablarda doğma torpağın nisgili, ayrılığı həmişə hiss olunmuşdur. "Hara gedir bu qatar?" kitabında doğma torpağın, Vətən ayrılığının, nisgilini çox kövrəkliklə qələmə almışdır.

Ə.Zeynalov 1991-ci ildə "Azərbaycan bayatıları Qafaz regionnunda" mövzusunda namizədlik, 2003-cü ildə "Fransız ədəbiyyatında Şərq motivləri" (Volterin yaradıcılığı üzrə) doktorluq dissertasiyasını müdafiə etmişdir, 2005-ci ildən professordur. Beş il namizədlik, 7 il doktorluq dissertasiyası müxtəlif bəhanələrlə dayandırmışdı.

Haşiyə: 1995-ci ildə Əsgər iki illik doktorluq məzuniyyətinə çıxmaq istəyirdi, ancaq alınmadı. Səbəb ödəniləcək maaşın aşağı olması idi. O, doktorluq dissertasiyasını sakit bir tərzdə işləyirdi, heç kimin xəbəri yox idi. Kafedra iclasında bu məsələ qoyulanda hamının bu işdən xəbəri oldu. O zaman bizimlə işləyən dosent Sevda Vahabova dedi ki, Əsgər müəllim, siz inanırsınız ki, doktorluğu müdafiə edəcəksiniz? Əsgər çox klassik bir cavab verdi: "Özümə inanmasaydım bu işə girişməzdim". Həyat dissertasiyanı 7 il uzatmağıyla Sevda xanımın nə demək istədiyini, nəhayət, müdafiə etməsi və diplomunu almağı Əsgərin nə dərəcə də iradəli olmağını əsaslı surətdə təsdiq etdi.

O, namizədlik dissertasiyası üçün material toplayarkən çox əziyyətlərə qatlaşmışdır. İllərlə Ermənistan Əlyazmalar inistitutuna-Matenadarana müraciət etmişdir, oradan təxminən 550 Azərbaycan bayatıları əldə etmişdir və bu bayatıların Azərbaycan xalqına aid olduğunu sübut etmişdir. O dövrdə milli zəmində toqquşmalar olan vaxt Əsgər müəllim öz həyatını təhlükə altına qoyaraq Ermənistan Əlyazmalar inistitutunda işləmiş, müxtəlif maneələrlə rastlaşmışdır. Bir dəfə orada işləyərkən inistitutun işçilərindən biri ondan soruşmuşdur ki, sən Azərbaycan bayatılarını niyə axtarırsan? Əsgər müəllim ona cavab vermişdir ki, mən sübut edəcəm ki, bu bayatılar Azərbaycanlılara məxsusdur. Sonra həmin erməni Əsgər müəllimə iş prosesində müəyyən problemlər yaratmış və ona mane olmağa çalışmışdır.

Onun ilk mərhələdə namizədlik dissertasiyası "Azərbaycan bayatıları erməni qaynaqlarında" adlanırdı. Lakin bir neçə il dissertasiyanı müdafiyəyə buraxmadılar. Erməni sözünə görə onu qəbul etmədilər. Sonra Əsgər müəllim öz elmi rəhbərləri ilə məsləhətləşərək dissertasiyanın adını dəyişərək "Azərbaycan bayatıları Qafqaz regionunda" qoydu. 1991-ci ildə dissertasiyanı uğurla müdafiə etdi.

Artıq Əsgər müəllim elmdə böyük bir məşəl yandırmışdır. Bu məşəlin işığı yüzlərlə tələbənin, magistrin, dissertantın, aspirantın elm aləmində yoluna nurla dolu işıq saçır. Baxmayaraq ki, o , həyatda, elmdə böyük çətinliklərə dözmüşdür. Hal-hazırda o bütün aspirantlarına və dissertantlarına böyük qayğı və ümidlə yanaşır.

Əsgər müəllim öz kafedrasında çalışan müəllimləri kitab, məqalə yazmağa həvəsləndirirdi. İlk kitabımı yazmağı da məni məhz Əsgər müəllim ruhlandırmışdı. Mənə bildirdi ki, sənin çox güclü qələmin var və yaxşı kitablar yazacaqsan. 2004-cü ildə ilk kitabım nəşr olunanda Əsgər müəllim kafedrada bu kitabı kollektivə təqdim etdi və bunun ardıcıl olmağını arzuladı. Elə bu minvalla da ardıcıl olaraq hər il bir kitab nəşr elətdirdim.

Əsgər bütün varlığı ilə elmə bağlı insandır. Söhbət əsnasında mənə Uluxanlı kənd orta məktəbini bitirən görkəmli ziyalılar barədə və həmçinin yazmış olduğu məşhur "İrəvan ziyalıları" kitabının necə ərsəyə gəlməsi barədə danışırdı. Bunları elə həvəslə, elə ürəklə danışırdı ki, ona saatlarla qulaq asmaqdan yorulmurdum.

Əvvəlki illərdə universitetimizdə hər il qış və yay semestri qurtaranda müəllimlərin boş vaxtlarının səmərəli keçməsi məqsədilə nərd, dama və şahmat yarışları təşkil olunurdu. Əsgəri bu yarışlarda görmək mümkün deyildi. Nə zaman zəng edib əlaqə saxlasan, onu ya hər hansı məqalə, ya da bir kitab üzərində çalışdığını bildirərdi. O, həqiqətən əsl elm adamıdır. Mənə elə gəlir ki, professor Zeynalov Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun layiqli sələfidir, çünki M.F.Axundov öz kəlamlarında yazırdı: "İnsan elm ardınca getməlidir və hər yerdə elmi yaymağa çalışmalıdır". Bəli Əsgər müəllim həmişə elm ardınca getmişdir və olduğu hər yerdə elmi yaymağa çalışmışdır.

Əsgər müəllim həmçinin 14 il ADU-nun Tələbə Elmi Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. Universitetin tələbələrini

elmi konfranslara hazırlayırdı və hər il tələbələr bu konfranslarda yaxşı yer tuturdular. Məhz bunun nəticəsi idi ki, Azərbaycan Dillər Universitetinin tələbələri başqa universitetin tələbələrindən fərqli olaraq Respublika TEC üzrə ikinci yerə layiq görülmüşdülər.

Əsgər müəllim respublikamızda daha çox "İrəvan ziyalıları" kitabı ilə tanınmışdır. Bu kitab ona böyük uğur gətirmişdir. Kitabın yazılmasının maraqlı bir tarixçəsi vardır. Belə ki, hələ orta məktəbdəçalışarkən yaşlı müəllimləri İrəvanda Mirzə Hüseyn Ağa adlı böyük bir şərqşünas alimin yaşaması barədə söhbətlər edirdilər, ancaq onun heç bir əsərinin qalmadığını, hətta onun dəfələrlə Moskva, Sankt-Peterburq universitetlərinə dəvət olunduğunu, amma onun doğma şəhəri İrəvanı tərk etmədiyini söyləyirdilər.

Əsgər müəllim Bakıya gəldikdən bir neçə ay sonra Mirzə Hüseyn Ağanın övladlarının Bakıda yaşadığını öyrənib Binə, Bilgəh kənd və sanatoriyasına,Yer Quruluşu institutuna üz tutur, onun övladları ilə görüşür. Nəhayət iki illik axtarışdan sonra "Mirzə Hüseyn Ağa" adlı yazını Əsgər müəllim "Vətən səsi" qəzetinə təqdim edir. Qəzetin o zamanki redaktoru, professor Teymur Əhmədov həmin iri həcimli yazını 1991-ci il iyulun 14-də "İrəvan ziyalıları" adı altında nəşr etdirir. Bundan sonra Teymur müəllim Əsgəri bu sahəyə istiqamətləndirir. Nəhayət 15 illik ciddi axtarışlardan sonra bu kitab ərsəyə gəlir. "İrəvan ziyalıları" söz birləşməsi professor Teymur Əhmədovun tapıntısıdır.

Bu kitabı ərsəyə gətirərkən Əsgər müəllim min kilometrlərlə məsafə qət etmişdir. Nə qədər insanlarla görüşmüş, Azərbaycanın müxtəlif bölgələrinə və müxtəlif şəhərlərinə getmişdir. Həmin insanların evlərində olarkən onların şəxsi arxivlərindən müxtəlif materiallar götürmüş, oxumuş və öz kitabında onlara istinad etmişdir. Moskva arxivlərinin sənədləri ilə tanış olmuş və müəyyən dərəcədə onlardan faydalanmışdır. Bakının müxtəlif

**Rafiq Musayev**

# Alimin yaradıcılıq meridianları

**“MM-S” müəssisəsi**
**Bakı -2020**

Redaktor: Filologiya elmləri doktoru,  professor
**Teymur Əhmədov**

Rəyçi: dosent **Misgər Məmmədov**
Korrektor: **Xoşqədəm Musayeva**
Rəssam: **Səkinə Z.Bağırova**

**Rafiq Musayev. Alimin yaradıcılıq meridianları.**

Bu kitabda görkəmli ədəbiyyatşünas alim filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun həyat və yaradıcılığından bəhs olunur. Əsərdə dünyanın ondan artıq ölkəsində kitabları nəşr olunmuş, bir neçə beynəlxalq Akademiyaların, Cəmiyyətlərin üzvü olan bu zəhmətkeş alimin yaradıcılığı təhlil edilmiş, xarici və Azərbaycan alimlərinin onun haqqında məqalələri və fikirləri öz əksini tapmışdır.

## Alimin həyatı

Azərbaycan Dillər Universitetinin uzun illər kafedra müdiri olmuş (Praktik fransız dili, Qafqazşünaslıq, Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müdiri), Nyü-York Elmlər Akademiyasının üzvü, Özbəkistan Turan Elmlər Akademiyasının akademiki, Parisdə fəaliyyət göstərən Viktor Hüqonun Dostları Cəmiyyətinin üzvü, Türk Dünyası Araşdırmalar Beynəlxalq Akademiyasının akademiki, Almaniyanın Hanovver şəhərində fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyasının akademiki, Filologiya elmləri doktoru, professor Əsgər Məmməd oğlu Zeynalov.

İndi bu ad dünyanın bir çox ölkələrində yaxşı tanınır. Onun indiyənədək Sankt-Peterburqda (2011), Moskvada (2013), ABŞ-da (3 kitabı 2016), Fransada (2015), Almaniyada (2016), İngiltərədə (2016), Kanadada (2016), Hindistanda (2017), İsveçdə (2018), kitabları işıq üzü görmüş, İranda, Rusiyada, Türkiyədə, Serbiyada 10 məqaləsi nəşr edilmişdir. O, Bakıda, İrəvanda, Almaniyada, Türkiyədə, Fransada keçirilən bir sıra beynəlxalq konfrans, qurultay və tədbirlərdə respublikamızı layiqincə təmsil etmişdir.

Dünya şöhrətli rus alimləri Baris Starkov, Rudolf İvanov, fransız alimləri Jan Lui Bakke Qrammon və Arno Laster azərbaycanlı alimin yaradıcılığını yüksək qiymətləndirmişlər. Bosniya-Hersoqovinalı alim, akademik Enes Kariç 2017-ci il iyul ayının 1-də "Preporod" qəzetində "Viktor Hüqo Məhəmməd peyğəmbər haqqında" məqaləsində bir neçə dəfə professor Əsgər Zeynalovun yaradıcılığına istinad etmişdir.

Əsgər müəllim Fransada dörd dəfə təkmilləşmə kurslarında olmuş və həmin dövlətin sertifikatlarını almışdır. Eyni zamanda 2009 cu ildəTürkiyədə keçirilən Beynəlxalq elmi konfrasda çıxış etmiş və həmin dövlətin sertifikatını almışdır. Fransada onun haqqında bir neçə məqalə dərc olunmuşdur. Türk Dünyası

Araşdırmalar Beynəlxalq Akademiyasının Beynəlxalq Qızıl medalına layiq görülmüşdür.

Əsgər müəllim beynəlxalq miqyasda bu qədər şöhrət qazanmasına baxmayaraq tələbəlikdə nə qədər sadə idisə bu gün də elə sadədir. Onun iş yerində stolunun üstündə müqəddəs "Qurani-Kərimin" "Loğman" surəsindən bir kəlam var: "Heç zaman təkəbbürlü olma. Allah təkəbbürlü adamları sevmir".

Əsgər müəllim haqqında çoxlu məqalələr, iki kitab yazılıb. Qeyd edim ki, onu ən yaxşı tanıyıyanlardan biri də mənəm. Çünki 1970-1974-cü illərdə APXDİ-də bir kursda, bir qrupda oxumuşuq. Birlikdə laborant işləmişik, sonra da müəllim kimi bir kafedrada çalışmışıq. Buna görə də onun haqqında bir kitab yazmaq qərarına gəldim.Əsgər müəllim barədə yazmaq mənim üçün çox xoşdur. Mən Əsgər müəllim haqqında saatlarla danışaram və yazaram, yorulmaram. Təbii ki, bunun müəyyən səbəbləri var. Əsas səbəblərdən biri də odur ki, Əsgər müəllimi Azərbaycan Dillər Universitetində məndən yaxşı tanıyan, ona bələd olan adam çətin tapılar. Uzun illərdi ki, mən onu tanıyıram, onunla ünsiyyətdəyəm və dostluq edirəm. Gəncliyimin ən gözəl çağları Əsgərlə birgə keçib. Əsgər kimdir? İndi onun haqqında söhbətə başlayıram.

Zeynalov Əsgər Məmməd oğlu 1951-ci il sentyabr ayının 27-də İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndində anadan olmuşdur. Kənd səkkizillik məktəbi bitirdikdən sonra vaxtilə böyük ədib Cəlil Məmmədquluzadənin dərs dediyi Uluxanlı (Zəngibasar) orta məktəbini bitirmişdir.1974-cü ildə APXDİ-nin fransız dili fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində oturub birgə söhbət edəndə mütaliə etdiyi kitablardan mənə danışardı. Əsgər söhbət əsnasında mənə deyərdi ki, yay tətili, yaxud istirahət günlərində 5-6 kitab götürüb təbiətin qoynuna gedər və bütün günü kitab oxuyardı. Yalnız axşamüstü evə qayıdardı. O, tələbəlik illərində də çoxlu mütaliə edirdi. Təzə

hansı kitab nəşr olunurdusa onu alıb oxuyardı. Tələbələr Əsgəri soruşanda deyirdik ki, birinci kitabxanaya baxın. Mən Əsgərlə tələbə yoldaşı olmuşam və sonra yenə birlikdə bir kafedra da həmkar kimi çalışmışıq. Onun çalışqanlığı elmdə böyük nailiyyətlər qazanmağa stimul verib. Mən bu səmimi, qayğıkeş, xeyirxah insan, sözün əsl mənasında böyük alim və tədqiqatçı olan professor Əsgər Zeynalov haqqında öz ürək sözlərimi , həmçinin onun yüksək insani keyfiyyətləri barədə söhbət açmaq istəyirəm. Bunu yazmaq məni məmnun edir, çünki mən Əsgər müəllimi gənclik illərindən tanıyıram. Onunla bir qrupda təhsil almışam, həm də dostu olmuşam. Biz 169-cu qrupda təhsil alanda o, öz səmimiyyəti,mehribanlığı ilə seçilirdi. Əsgər tarix, ədəbiyyat və dil dərslərində çox fəal olurdu, müəllimlərə maraqlı suallar verir və onu düşündürən bir çox məsələlərə aydınlıq gətirməyə çalışırdı. O, dərslərdə çox zaman müəllimləri heyrətləndirməyi bacarırdı. Məsələn, yaxşı xatırlayıram ki, bizə Azərbaycan tarixindən dərs deyən Tərlan müəllimin dərsində Əsgər Midiya dövləti, Atabəylər sülaləsini xronoloji ardıcıllıqla elə sadalamışdı ki, hətta Tərlan müəllim onun cavabına təəccüblənmiş və məmnun qalmışdır.

Əsgər Azərbaycan musiqisini və muğamlarını çox sevirdi. O, Qulu Əsgərov, Əlibaba Məmmədov, Süleyman Abdullayev, Rübabə Muradova, Elmira Rəhimova, Teymur Mustafayev, Nəzakət Məmmədovanın konsertlərinə müntəzəm olaraq gedirdi. O, ən çox Sabir Mirzəyevin "Çahargah"ına, xüsusilə "Bəstə -Nigar" şöbəsinə qulaq asmağı sevərdi. Çox vaxt Əsgər evdə tapılmayanda bilirdilər ki, Əsgər çox güman ki, ya "Leyli və Məcnun"a baxmağa, ya da Sabir Mirzəyevin konsertinə gedib. Əsgər "Leyli və Məcnun", "Əsli və Kərəm", "Gəlin Qayası" və "Şah İsmayıl" operalarına həvəslə baxardı. O, həmçinin Dram teatrının və Musiqili komediya teatırının tamaşalarına da həvəslə gedirdi. Bir dəfə qrupda tələbə qızlardan biri Fəxrəndə Balayeva Əsgər

haqqında bildirdi ki, Əsgər çox savadlıdır və gələcəkdə böyük alim olacaq. Əsgərin işıqlı gələcəyi ,gənclik çağından çoxumuza aydın idi. O, boş vaxtlarında kitabxanalara gedərdi, tez-tez o, M.F.Axundov adına kitabxanaya gedir, orada dünya yazıçılarının əsərlərini mütaliə edirdi. Tələbə vaxtları da çoxlu kitablar alırdı. Bir haşiyə çıxmaq istəyirəm. Dəqiq bilirəm ki, onun evində hal-hazırda zəngin kitabxanası var və burada dünya ədəbiyyatından və Azərbaycan ədəbiyyatından saysız-hesabsız kitablar var.

Əsgər həm də xeyirxah, qayğıkeş, səmimi bir insandır.Mən bunu ilk illərdə hiss etmişəm. O, tələbəlik çağından çətinlikdən və maneələrdən qorxmurdu, hətta xəstəlikdən də qorxmur, mübarizə aparmağı bacarırdı. Tələbə vaxtı Əsgər yataqxanada qalırdı, onunla bir otaqda başqa bir kursda oxuyan Gülağa Atakişiyev adlı tələbə yoldaşı qalırdı. O, mənə danışmışdı ki, bir gün biz Əsgərlə möhkəm xəstələnmişdik, soyuqlamışdıq. Mən ağrılardan şikayət edirdim. Bu vaxt qəfildən, gözlənilmədən Əsgər ayağa durdu və yumruğunu stola vurdu və dedi ki, mən xəstə deyiləm. Onun belə özünə güvənli olmağı mənə də güc verdi və mən də ayağa durdum, biz tezliklə sağaldıq.

Bir məsələni də xatırlatmaq istəyirəm ki, o vaxt bizə dərs deyən müəllimlərin arasında xarici vətəndaşlar da vardı. Bu ənənə elə indinin özündə də davam edir. Yadıma gəlir ki, bizə fransız ədəbiyyatından bir gənc fransız xanımı dərs deyirdi. Onun adı səhv etmirəmsə, Elen Vazel idi. O, bizə fransız ədəbiyyatından, yazıçı və şairlərdən mühazirələr oxuyurdu. Dəqiq yadımdadır ki, Əsgər bir dəfə ədəbiyyat dərsində həmin xanıma fransız və eləcə də dünya ədəbiyyatının nəhəng yazıçıları Hüqo və Volterdən suallar vermişdir. Bu suallar çox məntiqli və düşündürücü olduğuna görə xanım Vazelin xoşuna gəlmişdir. Xanım Vazel onun sullarına aramla cavab verib, diqqətli və çalışqan olduğuna görə Əsgərə xüsusi minnətdarlıq etmişdir. Bir dəfə Əsgər dərsdə Elen Vazeldən soruşdu ki, sizcə fransız ədəbiyyatında ən böyük

yazıçı kimdir? O, belə cavab verdi: Stendal. Əsgər dedi ki, bəs Hüqo? Elen Vazel belə cavab verdi: Fransada deyirlər ki, Hüqo fransız ədəbiyyatının milyarderi, Stendal isə şahıdır. Sonralar bu dialoq Əsgərin monoqrafiyalarında öz əksini tapdı, O, Hüqo haqqında kitablardan birinin adını belədə adlandırdı: "Hüqo-fransız ədəbiyyatının milyarderi".

Mən həmçinin tələbəlik illərində onun necə fəal ictimaiyyətçi və təbliğatçı olduğunu görmüşəm. O, tələbə yoldaşlarına Azərbaycan filmlərinə və tamaşalarına baxmağı təbliğ edirdi, özü də tez-tez bu filmlərə və tamaşalara baxmağa gedirdi. O, tələbə inşaat dəstəsində də çox fəal iştirak etmişdir. Əsgər demək olar ki, bir ay yarım inşaat dəstəsində işləmişdir və xüsusi mükafata layiq görülmüşdür. Hələ tələbəlik illərində müntəzəm olaraq respublika qəzetlərini oxuyur və gündəlik mətbuatla maraqlanırdı. Əsgər tez-tez qəzetlərdə dərc olunan məqalələr barədə fikir bildiridi. Qəzetlərdə daha çox tarixə, ədəbiyyata və dilçiliyə aid olan məqalələri axtarıb tapır, onları həvəslə oxuyurdu. Fikir verirdim ki, Əsgər aldığı təqaüdün çox hissəsini kitablara və qəzetlərə həvəslə xərcləyirdi və daim mütaliə ilə məşğul olurdu. Elə bu mütaliələr sonralar onun elmdə nailiyyətlər qazanmasına və hərtərəfli savadlı olmasına təsir etdi. Biz tələbə olarkən dərslərimizi 1 May küçəsindəki üçmərtəbəli binada keçmişik, indi hal-hazırda bu bina qəzalı vəziyyətdədir və istifadəyə yararsızdır. O vaxt "Nizami" kinoteatrı bizim dərs oxuduğumuz binaya çox yaxın idi. Bəzən elə olurdu ki, Əsgər qrup yoldaşlarına deyirdi ki, kinoteatrda Azərbaycan xalqının tarixi qəhrəmanlığından bəhs edən yaxşı filmlər nümayiş etdirilir. Əsgər uşaqları belə maraqlı filimlərə baxmağa dəvət edirdi. Tələbə yoldaşlar ona qoşulub belə filmlərə baxmağa gedirdilər və filmdən yaxşı zövq alırdılar. Sonra biz Əsgərlə birlikdə bu filmləri müzakirə edirdik, bu da tələbələrin milli vətənpərvərlik ruhunda tərbiyə almasına kömək edirdi.

Məndə olan məlumata görə Əsgər hələ orta məktəbdə oxuyanda iti hafizəyə, yaddaşa malik olmuşdur. Orta məktəbdə oxuyarkən əsl savadlı şagird olduğunu və onun böyük gələcəyi olacağına həm müəllimləri, həm döğmaları, həm də doğulub boya-başa çatdığı kənd camaatı böyük ümid edirdilər və buna inanırdılar. Çünki Əsgər çox vaxt dərslikləri və əlavə kitabları özü ilə götürər və saatlarla təbiətin qoynunda bu kitablarla baş-başa qalardı. Beləliklə o, oxuduğu kitabların dərinliklərinə baş vuraraq onların sirlərinə yaxından bələd olurdu. Əsgər hələ orta məktəbdə oxuyanda şeirlər yazırdı.Onun 5-ci sinifdə oxuyarkən yazdığı "Balaca şair" şeirini demək olar ki, bütün sinif yoldaşları əzbər bilirdi və onu hamısı "şair" deyə çağırırdılar.7-ci sinifdə oxuyanda onun 9 şeiri məktəbin divar qəzetində öz əksini tapmışdı.

Əsgər müəllim, elə insandır ki, heç kimə əziyyət verməyi xoşlamır. Belə ki, ali məktəbdə oxuyarkən gedib tələbə yataqxanalarında və yaxud kirayə evlərdə qalmış, amma şəhərdə yaşayan əmilərinin evlərində qalıb onlara əziyyət vermək istəməmişdir. Şəhərdə yaxşı həyat təcrübəsi əldə etdi, bu təcrübəni əldə etməkdə əmiləri ona çox kömək etdilər və dəstək oldular. Ona görə də heç kim ona mənfi təsir göstərə bilməmişdir. Özü isə yaxınlarının və dostlarının əziyyətini çəkməyə, təmənnasız olaraq insanlıq xatirinə yaxşılıq etməyə hazır olan bir insandır.

Əsgər 1969-cu ildə orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Pedaqoji institutunun filologiya fakültəsinə vermişdir. Bütün imtahanlardan keçsə də, lazımi bal toplaya bilmədiyi üçün, instituta qəbul ola bilməmişdir. Bundan sonra o, Azərbaycan Xarici Dillər institutunun hazırlıq şöbəsində oxumuşdu. Orada oxuyarkən yenicə müdafiə etmiş Adil Babayev (sonralar o, elmlər doktoru, professor oldu), Əlimuxtar Ağayev (sonralar o, elmlər namizədi dosent kimi bizimlə eyni kafedrada çalışdı) dərs deyir. Hazırlıq kursu Əsgərin hafizəsində

xoş xatirə kimi qalmışdı. Adil müəllimin Füzulinin "Leyli və Məcnun"undan böyük bir hissəni, Səməd Vurğunun "Vaqif" dramını əvvəldən sonadək əzbər deməsini Əsgər bu gün də dönə-dönə xatırlayır. Onu da diqqətə çatdırmaq lazım gəlir ki, Əsgər hələ orta məktəbin 9-cu sinfində təhsil alarkən onun ədəbiyyat müəllimi Rəfiqə müəllimənin hazırladığı tədbirdə Səməd Vurğunun "Vaqif" dramında həm İlyas, həm də Vidadi, Salam Qədirzadənin "Şirinbala bal yığır" əsərində institut müəllimi, professor rolunu oynamışdır.

Əsgərgilin kəndində məktəb səkkizillik olduğu üçün, o, 9-10-cu sinifləri rayon mərkəzində-Zəngibasarda oxumuşdu. Əsgər Zəngibasar məktəbindən danışarkən həmişə deyir ki, o zaman bu məktəbdə oxumaq ali məktəbdə oxumaqdan çətin idi. Çünki ətraf beş kənd məktəbinin ən yaxşı oxuyan şagirdləri yuxarı sinifləri davam etdirmək üçün bu məktəbə gəlirdilər. 9-cu sinifə təxminən 110 şagird gəlirdi, 10-cu sinifə 60 şagird ancaq qalırdı. Çoxu oxuya bilməyib çıxıb gedirdi.

Əsgər "Şirinbala bal yığır" əsərinin tamaşası ilə bağlı maraqlı bir epizod danışır: "Ədəbiyyat müəllimimiz Rəfiqə Abbasova Salam Qədirzadənin "Şirinbala bal yığır" əsərini tamaşaya hazırlayarkən 10-cu sinif şagirdləri Müslüm və Gültəkin Şirinbalanın atası və anası rollarını, bibim oğlu Cavidə sürücü və mənə isə inistitut müəllimi, professor rolunu tapşırdı. Tale elə qismət etdi ki, Müslümlə Gültəkin ailə qurdu, bibim oğlu sürücü, mən isə institut müəllimi, professor oldum. Sanki ulu Tanrı bizim qismətimizi o zaman müəyyənləşdirmişdi".

1974-cü ildə biz ikimiz də ali məktəbi bitirdik. Mən təyinatımı Qubadlı rayonuna aldım və orada işləməyə başladım. Məni indi də bir hiss, bir fikir həmişə incidir ki, o cür füsünkar gözəlliyi və təbiəti olan bir rayon mənfur düşmənlərin tapdağı altında qalmışdır. Amma Əsgər oz təyinatını Dağlıq Qarabağa aldı və təxminən bir il orada işlədi. Orada işləyərkən də çox fəal olmuşdur,

öyrəndiyi fransız dilini böyük sevgi ilə məktəb şagirdlərinə öyrədir və bundan xüsusi zövq alırdı.

Əsgər Dağlıq Qarabağda Ağdərə rayonunun Manikli və Xatınbəyli kəndlərində işləyərkən, nə qədər təəccüblü olsa da fransız dili ilə yanaşı kimya dərsini də tədris etmişdi. Bir dəfə dərs hissə müdiri gəlib Əsgərin dərsini dinləyir. Əsgər isə heç bir qeydiyyata baxmadan reaksiyaları aparır, əmsalları düzəldir. Dərsin müzakirəsindən sonra tədris hissə müdiri Əsgərə deyir: "Kimya müəllimimizi ancaq tapmışıq, səni heç yana buraxan yoxdu". Əsgər isə deyir ki, bunun üçün Yuxarı Necili kənd məktəbində və Uluxanlıda mənə dərs demiş kimya müəllimlərimə borcluyam. Fətullah Süleymanova və Hüseyn Həsənova. Bir il orada işlədikdən sonra öz doğma kəndinə qayıdır, həm bitirdiyi Yuxarı Necili kənd orta məktəbində, həm də qonşu Dəmirçi kənd orta məktəbində fransız dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

Haşiyə: Əsgər Zəngibasar (Uluxanlı) rayonunun Dəmirçi kənd orta məktəbində müəllim işləyərkən bir gün dərsini demək üçün sinif otağına daxil olub lövhədə "Ətalət" yazıldığını görüb deyir: "Kim deyər: ətalət nəyə deyilir? Kim desə "5" yazacam". Şagirdlərdən Fatma adında bir qız əlini qaldırıb cavab vermək istədiyini bildirir. O, uzun bir tərif deməyə başlayır. Əsgər deyir: "Bu nədir? Əyləş!" Bu zaman yerdən səs gəlir: "Guya özü bilir ha!! Əsgər bunu eşidib deyir: "Kimdir o sözü deyən, ayağa qalxsın". Həmin şagird səsini çıxarmır. Əsgər yenidən deyir: "Kimdir o sözü deyən, ayağa qalxsın, qorxmasın". Uca boy bir oğlan ayağa qalxıb "mənəm" - deyir. Əsgər Nyutonun qanunun üçünü də əzbər söyləyir, işarələri də qeyd etdikdən sonra, həmin oğlan "Zalım oğlu doğurdan da kəllədir" sözlərini yavaşca söyləyərək yerində əyləşir. Bu zaman Əsgərin 24 yaşı vardı...

Gənc müəllim kimi tez bir zamanda böyük hörmət qazandı. Qonşu kənddə bütün ailələrdə gənc fransız dili müəlliminin

necə gözəl dərs deməyindən, necə ağır təbiəti olduğundan danışılırdı. Bir il işlədikdən sonra hərbi xidmətə çağırılır.Ulan-Ude şəhərində hərbi xidmətdə olarkən belə şagirdləri onu unutmur, öz sevimli müəllimlərinə məktub yazırdılar. Hərbi xidmətdə olarkən onun haqqında hərbi dairənin qəzetində məqalə dərc olunur. Hərbi xidmətdə də vaxt tapan kimi mütaliə və tərcüməçiliklə məşğul olurdu. Hərbi xidməti başa vurduqdan sonra da öz oxuduğu məktəbdə pedaqoji fəaliyyətini davam etdirdi.

Bu dövrdə artıq onun elmi fəaliyyəti başlandı. İş elə gətirdi ki, professor Teymur Əhmədov və mərhum professor Mirəli Seyidov Əsgərin elmi rəhbərləri oldular. O, çox maraqlı və bu gün üçün də tarixi əhəmiyyət kəsb edən elmi əsər işlədi və bu əsərin adı "Azərbaycan bayatıları erməni qaynaqlarında" adlanırdı. Təxminən 10 il erməni arxivlərində araşdırmalar apardı, gözəl bir dissertasiya ortaya çıxartdı. Əsgər erməni mənbələrində tədqiqat aparan sonuncu Azərbaycanlı oldu. Həmin arxivlərdə ermənilərə məxsus olduğu hesab edilən 550 bayatının məhz bizə məxsus olduğunu, ümumiyyətlə, ermənilərin hec vaxt bayatıları olmadığını dəlillər gətirərək sübut etdi.

1988-ci ildən deportasiya olunduqdan sonra Əsgər Abşeron rayonunun Xırdalan qəsəbəsində məskunlaşdı. Bu dövrdə Dağlıq Qarabağla bağlı münaqişələr və müharibə başlandı. Həmin ərəfədə Əsgərin böyük zəhməti bahasına başa gətirdiyi bu elmi işi müxtəlif bəhanələrlə müdafiəyə buraxılmırdı. Hətta həmin elmi işin təsdiq edilməsi üçün Moskvaya və Ermənistan Elimlər Akademiyasına müraciət olunmuşdur. Qəribə də olsa Ermənistan Elimlər Akademiyası bu müraciətə müsbət cavab verdi. Bu dəfə növbəti bəhanə mövzunun adının dəyişdirilməsi oldu. Mövzu "Azərbaycan bayatıları Qafqaz regionunda" adlandırıldı. Əsgər müəllim mövzunun adını əhatə etmək üçün yenidən arxivlərə, kitabxanalara üz tutmalı oldu. Nəhayət o 1991-ci ilin noyabrında namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi.

Mənə elə gəlir ki, Əsgər müəllim bu dissertasıyanı yazmaqla böyük vətənpərvərlik göstərmişdir, ona görə ki, o, heç nədən çəkinmədən, qorxmadan mənfur düşmənlərimiz olan ermənilərdən Azərbaycan xalqına məxsus olan bayatıları onlardan almış və subut etmişdir ki, bu bayatılar Azərbaycan xalqına məxsusdur.

Ermənistandan deportasiya olunduqdan sonra o, bir neçə ay işsiz qaldı. Bir təsadüf, eyni zamanda səmimi, qeyrətli insan Qorxmaz müəllimin xeyirxahlığı nəticəsində APXDİ-na laborant vəzifəsinə işə düzəldi. Sonradan o bu universitetdə pillə-pillə ucalmağa başladı. Əvvəlcə müəllim, sonra baş müəllim, dosent, kafedra müdiri, filologiya elmləri doktoru professor oldu.

Bir dəfə belə bir hadisə olmuşdur, mən fransız dilinin üslubiyyəti kafedrasında baş müəllim işləyirdim, Əsgər müəllim isə Praktik fransız dili kafedrasına yenicə müdir seçilmişdi. Məndə növbəti beşillik seçki idi. Təcili şəkildə elmi işlər üçün məqalə lazım oldu,onun yanına getdim. Çox mehribanlıqla məni qəbul etdi. Əsgərə dedim ki, mənə təcili olaraq seçkim üçün məqalə nəşr etdirmək lazımdır. O,mənə dedi ki, heç narahat olma mən sənə kömək edəcəyəm. Sən sabaha bir məqalə hazırla  və sabah biz birlikdə nəşriyyata gedərik. Elə də oldu, axşama qədər bir məqalə hazırladım və səhərisi gün nəşriyyata getdik. Onunla birlikdə məqaləni nəşrə verdik.

Mən bu universitetdə 42 ildən çoxdur ki, işləyirəm və 15 ilədək onunla bir kafedrada işləmişəm. O, Praktik fransız dili kafedrasının müdiri, mən isə həmin kafedranın baş müəllimi idim. Əsgər müəllim kafedrada bütün müəllim və laborantlara qarşı diqqətli və qayğıkeş idi. Yaxşı yadımdadır bu kafedrada işləyərkən, orada Abbasova Gülnarə adında baş müəllim vardı. O, böyrək çatışmazlığından əziyyət çəkirdi və tez-tez dializə gedirdi. O, müalicə xərclərini ödəməkdə çətinlik çəkirdi. Bu vaxt Əsgər xeyirxahlıq göstərib ona kömək etdi. Belə ki, müəllimlərin

adına növbə ilə həmkarlar təşkilatına ərizələr yazdırır və alınan pulları müalicəyə kömək məqsədilə ona verirdi.

Yaxşı xatirimdədir, Əsgər müəllim kafedrada iclasları çox yüksək səviyyədə keçirirdi. Həmişə istəyirdi ki, müəllimlər iclasda çıxış etsinlər və öz fikirlərini, təkliflərini bildirsinlər. Hər bir iclasda Əsgər müəllim müəllimlərin qazandığı uğurları xüsusi qeyd edib müəllimlərə daha yaxşı işləmək üçün stimul verirdi. Hansı müəllimin kitabı, məqaləsi nəşr olunurdusa Əsgər müəllim iclasda həmin kitabı və ya məqaləni kafedranın bütün müəllimlərinə göstərər, həmin müəllimi ürəkdən təbrik edərdi. Belə məqamlarda görürdüm ki, bu adam o qədər ürəkdən sevinir ki, sanki bu uğurlar onun özünə məxsusdur. Hərdən elə olurdu ki, mənə zəng edib deyirdi ki, sənin üçün əlavə saathesabı dərs ayırmışam həmin dərslərin cədvəlini götürə bilərsən, narahat olma həmişə sənin yanındayam. Bir dəfə mənə zəng etdi və dedi ki, Bakı Asiya universitetində saathesabı dərs var, yaxşı da maaş verirlər, mən istəyirəm ki, bu dərsləri sən deyəsən. Sözün doğrusu tərəddüd etdim. Mənə bir də zəng etdi və yenə mənim ora getməyimi istədi və təkid etdi. Mənə bildirdi ki, bu işi ona təklif ediblər, lakin kafedra müdiri olduğuna görə boş vaxt demək olar ki olmur, tez-tez iclaslara, elmi şuralara, tədbirlərə gedirəm vaxtım qalmır. O, bu işi mənə məsləhət bildi. Səhəri gün mənimlə birlikdə Asiya universitetinə getdi və məni prorektora təqdim edib dedi ki, Rafiq müəllim mənim kafedramın ən yaxşı müəllimlərindən biridir, gözəl tərcüməçidir, burada yüksək səviyyədə dərsləri  tədris edəcək.

Bir gün Maştağada yaxın qohumumun yas məclisində əyləşmişdik. Məclis bitdikdən sonra atam Əsgərlə həyətdə alma ağacının altında xeyli söhbət etdilər. Məclisdən sonra biz dünyadan köçənlərimizin ziyarətinə getdik. Orada Əsgər öz əmisinin məzarınıda ziyarət etdi .Biz məclisdən sonra evə qayıtdıq. Atam əlini mənim çiynimə qoyub dedi ki, oğul özünə etibarlı dost qazanmısan.

Adam var atasının qəbrinin üstünə getmir, o, əmisinin qəbrini ziyarət edir. Mən inanıram ki, sizin dostluğunuz əbədi olacaq, Əsgərə güvənə bilərsən, o, həqiqətən əsl dost və etibarlı insandır. İllər atamın sözlərinin gerçək olduğunu sübut etdi.

Bütün bunlarla bərabər Əsgər müəllim həm də vətənpərvər insandır, o, bütün varlığı ilə elinə, obasına, millətinə bağlıdır. 1990-cı illərdə müharibə gedərkən ön cəbhədə döyüşən əsgərlərimizlə görüşmək üçün universitetimizin bir neçə tələbə və müəllimi ilə birlikdə Murova, Tərtərə, Ağdərəyə, cəbhə bölgələrinə getmiş, üç gün orada əsgərlərimizlə birlikdə olmuşdur. Əsgər müəllim cəbhədə yaralanan və şəhid olan döyüşçülərimiz barədə 100-dən çox məqalə yazmış, gəncləri belə vətənpərvər olmağa çağırmışdır. O, şəhid Bəxtiyar haqqında material toplamaq üçün Gəncəyə getmişdir, onun ailə üzvləri ilə görüşmüş dəyərli məlumatlar toplamışdır. Əsgər müəllim öz övladlarına da vətənpərvərlik hisslərini aşılamışdır. Hələ uşaqları məktəbə getməyəndə belə 20 Yanvar günlərində Əsgər müəllim səhər tezdən uşaqları ilə Şəhidlər xiyabanına gedər və onların məzarları üstünə qərənfillər qoyardılar.

2001-ci ilin noyabr ayında İrəvanda keçirilən "Cənubi Qafqazda təhsil problemi" mövzusunda Beynəlxalq konfransa Azərbaycandan da nümayəndələr göndərilməli idi.Həmin konfransa yalnız bizim Universitetin müəllimlərndən getməli idi. Universitetdən Əsgər müəllim və Məhəmməd müəllim nəzərdə tutulmuşdu. Əsgər müəllim bu xəbəri eşidəndən sonra heç bir tərəddüd etmədən öz sənədlərini hazırlamağa başladı və sonra konfransa yola düşdü. O, heç bir qorxu bilmədən konfransda iştirak etdi və orada Vətənimizi mənfur düşmənlərimizin qarşısında ləyaqətlə təmsil etdi.

Sözün düzü, mən Əsgər müəllimi böyük tarixçi, ədəbiyyatçı və tədqiqatçı olmağına hələ tələbəlik illərindən şübhə etmirdim. Amma mən onun dünya şöhrətli, tədqiqatçı alim olacağına,

hətta aparmış olduğu öz elmi tədqiqat işləri ilə böyük fransız alimlərini belə təəccübləndirəcəyini təsəvvür etmirdim. Mən bunu təsadüfən demirəm, dəqiq bilirəm ki, o fransız alimlərinin belə ehtiyat etdikləri və böyük ehtiram bəslədikləri, təkcə fransız ədəbiyyatının deyil, dünya ədəbiyyatının böyük klassikləri olan Volter və Hüqonu elə tədqiq etmişdir ki, onlar haqqında elə sanballı monoqrafiyalar yazmışdır ki, hətta fransız alimləri özləri də təəccüblənmişlər. Bir neçə il bundan əvvəl Əsgər müəllim Fransada olarkən fransız ədəbiyyatına aid böyük bir konfrans keçirilirdi, o da həmin konfransda iştirak edirdi. Bu vaxt ona söz vermişdilər, o, konfransda çox gözəl çıxış etmişdir. Dünya ədəbiyyatının klassikləri Hüqonu və Volteri fransızların qarşısında çox dəqiq araşdırmış və təhlil etmişdir. Bu vaxt tədbirin sədri ayağa durub ona demişdir ki, zəhmət olmasa gəlin mənim yerimdə əyləşin, çünki siz mənim yazıçılarımı məndən yaxşı təhlil edirsiniz və onlara dərindən bələdsiniz.

Lakin bu səviyyəyə gəlib çatmaq Əsgər müəllim üçün o qədər də asan olmamışdır. O elmin çox ağır və əziyyətli yollarından keçmişdir. Əsgərin Yuxarı Necili kənd orta məktəbndə yandırdığı "şam"ın işığı hələ çox gənclərin yoluna nur salacaq. Öz elindən, yurdundan, doğma Necili kəndindən ayrı düşmüşdür, lakin onun yazdığı məqalə və kitablarda doğma torpağın nisgili, ayrılığı həmişə hiss olunmuşdur. "Hara gedir bu qatar?" kitabında doğma torpağın, Vətən ayrılığının, nisgilini çox kövrəkliklə qələmə almışdır.

Ə.Zeynalov 1991-ci ildə "Azərbaycan bayatıları Qafaz regionnunda" mövzusunda namizədlik, 2003-cü ildə "Fransız ədəbiyyatında Şərq motivləri" (Volterin yaradıcılığı üzrə) doktorluq dissertasiyasını müdafiə etmişdir, 2005-ci ildən professordur. Beş il namizədlik, 7 il doktorluq dissertasiyası müxtəlif bəhanələrlə dayandırmışdı.

Haşiyə: 1995-ci ildə Əsgər iki illik doktorluq məzuniyyətinə çıxmaq istəyirdi, ancaq alınmadı. Səbəb ödəniləcək maaşın aşağı olması idi. O, doktorluq dissertasiyasını sakit bir tərzdə işləyirdi, heç kimin xəbəri yox idi. Kafedra iclasında bu məsələ qoyulanda hamının bu işdən xəbəri oldu. O zaman bizimlə işləyən dosent Sevda Vahabova dedi ki, Əsgər müəllim, siz inanırsınız ki, doktorluğu müdafiə edəcəksiniz? Əsgər çox klassik bir cavab verdi: "Özümə inanmasaydım bu işə girişməzdim". Həyat dissertasiyanı 7 il uzatmağıyla Sevda xanımın nə demək istədiyini, nəhayət, müdafiə etməsi və diplomunu almağı Əsgərin nə dərəcə də iradəli olmağını əsaslı surətdə təsdiq etdi.

O, namizədlik dissertasiyası üçün material toplayarkən çox əziyyətlərə qatlaşmışdır. İllərlə Ermənistan Əlyazmalar inistitutuna-Matenadarana müraciət etmişdir, oradan təxminən 550 Azərbaycan bayatıları əldə etmişdir və bu bayatıların Azərbaycan xalqına aid olduğunu sübut etmişdir. O dövrdə milli zəmində toqquşmalar olan vaxt Əsgər müəllim öz həyatını təhlükə altına qoyaraq Ermənistan Əlyazmalar inistitutunda işləmiş, müxtəlif maneələrlə rastlaşmışdır. Bir dəfə orada işləyərkən inistitutun işçilərindən biri ondan soruşmuşdur ki, sən Azərbaycan bayatılarını niyə axtarırsan? Əsgər müəllim ona cavab vermişdir ki, mən sübut edəcəm ki, bu bayatılar Azərbaycanlılara məxsusdur. Sonra həmin erməni Əsgər müəllimə iş prosesində müəyyən problemlər yaratmış və ona mane olmağa çalışmışdır.

Onun ilk mərhələdə namizədlik dissertasiyası "Azərbaycan bayatıları erməni qaynaqlarında" adlanırdı. Lakin bir neçə il dissertasiyanı müdafiyəyə buraxmadılar. Erməni sözünə görə onu qəbul etmədilər. Sonra Əsgər müəllim öz elmi rəhbərləri ilə məsləhətləşərək dissertasiyanın adını dəyişərək "Azərbaycan bayatıları Qafqaz regionunda" qoydu. 1991-ci ildə dissertasiyanı uğurla müdafiə etdi.

Artıq Əsgər müəllim elmdə böyük bir məşəl yandırmışdır. Bu məşəlin işığı yüzlərlə tələbənin, magistrin, dissertantın, aspirantın elm aləmində yoluna nurla dolu işıq saçır. Baxmayaraq ki, o , həyatda, elmdə böyük çətinliklərə dözmüşdür. Hal-hazırda o bütün aspirantlarına və dissertantlarına böyük qayğı və ümidlə yanaşır.

Əsgər müəllim öz kafedrasında çalışan müəllimləri kitab, məqalə yazmağa həvəsləndirirdi. İlk kitabımı yazmağı da məni məhz Əsgər müəllim ruhlandırmışdı. Mənə bildirdi ki, sənin çox güclü qələmin var və yaxşı kitablar yazacaqsan. 2004-cü ildə ilk kitabım nəşr olunanda Əsgər müəllim kafedrada bu kitabı kollektivə təqdim etdi və bunun ardıcıl olmağını arzuladı. Elə bu minvalla da ardıcıl olaraq hər il bir kitab nəşr elətdirdim.

Əsgər bütün varlığı ilə elmə bağlı insandır. Söhbət əsnasında mənə Uluxanlı kənd orta məktəbini bitirən görkəmli ziyalılar barədə və həmçinin yazmış olduğu məşhur "İrəvan ziyalıları" kitabının necə ərsəyə gəlməsi barədə danışırdı. Bunları elə həvəslə, elə ürəklə danışırdı ki, ona saatlarla qulaq asmaqdan yorulmurdum.

Əvvəllki illərdə universitetimizdə hər il qış və yay semestri qurtaranda müəllimlərin boş vaxtlarının səmərəli keçməsi məqsədilə nərd, dama və şahmat yarışları təşkil olunurdu. Əsgəri bu yarışlarda görmək mümkün deyildi. Nə zaman zəng edib əlaqə saxlasan, onu ya hər hansı məqalə, ya da bir kitab üzərində çalışdığını bildirərdi. O, həqiqətən əsl elm adamıdır. Mənə elə gəlir ki, professor Zeynalov Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun layiqli sələfidir, çünki M.F.Axundov öz kəlamlarında yazırdı: "İnsan elm ardınca getməlidir və hər yerdə elmi yaymağa çalışmalıdır". Bəli Əsgər müəllim həmişə elm ardınca getmişdir və olduğu hər yerdə elmi yaymağa çalışmışdır.

Əsgər müəllim həmçinin 14 il ADU-nun Tələbə Elmi Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. Universitetin tələbələrini

elmi konfranslara hazırlayırdı və hər il tələbələr bu konfranslarda yaxşı yer tuturdular. Məhz bunun nəticəsi idi ki, Azərbaycan Dillər Universitetinin tələbələri başqa universitetin tələbələrindən fərqli olaraq Respublika TEC üzrə ikinci yerə layiq görülmüşdülər.

Əsgər müəllim respublikamızda daha çox "İrəvan ziyalıları" kitabı ilə tanınmışdır. Bu kitab ona böyük uğur gətirmişdir. Kitabın yazılmasının maraqlı bir tarixçəsi vardır. Belə ki, hələ orta məktəbdəçalışarkən yaşlı müəllimləri İrəvanda Mirzə Hüseyn Ağa adlı böyük bir şərqşünas alimin yaşaması barədə söhbətlər edirdilər, ancaq onun heç bir əsərinin qalmadığını, hətta onun dəfələrlə Moskva, Sankt-Peterburq universitetlərinə dəvət olunduğunu, amma onun doğma şəhəri İrəvanı tərk etmədiyini söyləyirdilər.

Əsgər müəllim Bakıya gəldikdən bir neçə ay sonra Mirzə Hüseyn Ağanın övladlarının Bakıda yaşadığını öyrənib Binə, Bilgəh kənd və sanatoriyasına,Yer Quruluşu institutuna üz tutur, onun övladları ilə görüşür. Nəhayət iki illik axtarışdan sonra "Mirzə Hüseyn Ağa" adlı yazını Əsgər müəllim "Vətən səsi" qəzetinə təqdim edir. Qəzetin o zamanki redaktoru, professor Teymur Əhmədov həmin iri həcimli yazını 1991-ci il iyulun 14-də "İrəvan ziyalıları" adı altında nəşr etdirir. Bundan sonra Teymur müəllim Əsgəri bu sahəyə istiqamətləndirir. Nəhayət 15 illik ciddi axtarışlardan sonra bu kitab ərsəyə gəlir. "İrəvan ziyalıları" söz birləşməsi professor Teymur Əhmədovun tapıntısıdır.

Bu kitabı ərsəyə gətirərkən Əsgər müəllim min kilometrlərlə məsafə qət etmişdir. Nə qədər insanlarla görüşmüş, Azərbaycanın müxtəlif bölgələrinə və müxtəlif şəhərlərinə getmişdir. Həmin insanların evlərində olarkən onların şəxsi arxivlərindən müxtəlif materiallar götürmüş, oxumuş və öz kitabında onlara istinad etmişdir. Moskva arxivlərinin sənədləri ilə tanış olmuş və müəyyən dərəcədə onlardan faydalanmışdır. Bakının müxtəlif

**Rafiq Musayev**

# Alimin yaradıcılıq meridianları

**“MM-S” müəssisəsi**
**Bakı -2020**

Redaktor: Filologiya elmləri doktoru,  professor
**Teymur Əhmədov**

Rəyçi: dosent **Misgər Məmmədov**
Korrektor: **Xoşqədəm Musayeva**
Rəssam: **Səkinə Z.Bağırova**

**Rafiq Musayev. Alimin yaradıcılıq meridianları.**

Bu kitabda görkəmli ədəbiyyatşünas alim filologiya elmləri doktoru, professor Əsgər Zeynalovun həyat və yaradıcılığından bəhs olunur. Əsərdə dünyanın ondan artıq ölkəsində kitabları nəşr olunmuş, bir neçə beynəlxalq Akademiyaların, Cəmiyyətlərin üzvü olan bu zəhmətkeş alimin yaradıcılığı təhlil edilmiş, xarici və Azərbaycan alimlərinin onun haqqında məqalələri və fikirləri öz əksini tapmışdır.

## Alimin həyatı

Azərbaycan Dillər Universitetinin uzun illər kafedra müdiri olmuş (Praktik fransız dili, Qafqazşünaslıq, Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müdiri), Nyü-York Elmlər Akademiyasının üzvü, Özbəkistan Turan Elmlər Akademiyasının akademiki, Parisdə fəaliyyət göstərən Viktor Hüqonun Dostları Cəmiyyətinin üzvü, Türk Dünyası Araşdırmalar Beynəlxalq Akademiyasının akademiki, Almaniyanın Hanovver şəhərində fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyasının akademiki, Filologiya elmləri doktoru, professor Əsgər Məmməd oğlu Zeynalov.

İndi bu ad dünyanın bir çox ölkələrində yaxşı tanınır. Onun indiyənədək Sankt-Peterburqda (2011), Moskvada (2013), ABŞ-da (3 kitabı 2016), Fransada (2015), Almaniyada (2016), İngiltərədə (2016), Kanadada (2016), Hindistanda (2017), İsveçdə (2018), kitabları işıq üzü görmüş, İranda, Rusiyada, Türkiyədə, Serbiyada 10 məqaləsi nəşr edilmişdir. O, Bakıda, İrəvanda, Almaniyada, Türkiyədə, Fransada keçirilən bir sıra beynəlxalq konfrans, qurultay və tədbirlərdə respublikamızı layiqincə təmsil etmişdir.

Dünya şöhrətli rus alimləri Baris Starkov, Rudolf İvanov, fransız alimləri Jan Lui Bakke Qrammon və Arno Laster azərbaycanlı alimin yaradıcılığını yüksək qiymətləndirmişlər. Bosniya-Hersoqovinalı alim, akademik Enes Kariç 2017-ci il iyul ayının 1-də "Preporod" qəzetində "Viktor Hüqo Məhəmməd peyğəmbər haqqında" məqaləsində bir neçə dəfə professor Əsgər Zeynalovun yaradıcılığına istinad etmişdir.

Əsgər müəllim Fransada dörd dəfə təkmilləşmə kurslarında olmuş və həmin dövlətin sertifikatlarını almışdır. Eyni zamanda 2009 cu ildəTürkiyədə keçirilən Beynəlxalq elmi konfrasda çıxış etmiş və həmin dövlətin sertifikatını almışdır. Fransada onun haqqında bir neçə məqalə dərc olunmuşdur. Türk Dünyası

Araşdırmalar Beynəlxalq Akademiyasının Beynəlxalq Qızıl medalına layiq görülmüşdür.

Əsgər müəllim beynəlxalq miqyasda bu qədər şöhrət qazanmasına baxmayaraq tələbəlikdə nə qədər sadə idisə bu gün də elə sadədir. Onun iş yerində stolunun üstündə müqəddəs "Qurani-Kərimin" "Loğman" surəsindən bir kəlam var: "Heç zaman təkəbbürlü olma. Allah təkəbbürlü adamları sevmir".

Əsgər müəllim haqqında çoxlu məqalələr, iki kitab yazılıb. Qeyd edim ki, onu ən yaxşı tanıyıyanlardan biri də mənəm. Çünki 1970-1974-cü illərdə APXDİ-də bir kursda, bir qrupda oxumuşuq. Birlikdə laborant işləmişik, sonra da müəllim kimi bir kafedrada çalışmışıq. Buna görə də onun haqqında bir kitab yazmaq qərarına gəldim.Əsgər müəllim barədə yazmaq mənim üçün çox xoşdur. Mən Əsgər müəllim haqqında saatlarla danışaram və yazaram, yorulmaram. Təbii ki, bunun müəyyən səbəbləri var. Əsas səbəblərdən biri də odur ki, Əsgər müəllimi Azərbaycan Dillər Universitetində məndən yaxşı tanıyan, ona bələd olan adam çətin tapılar. Uzun illərdi ki, mən onu tanıyıram, onunla ünsiyyətdəyəm və dostluq edirəm. Gəncliyimin ən gözəl çağları Əsgərlə birgə keçib. Əsgər kimdir? İndi onun haqqında söhbətə başlayıram.

Zeynalov Əsgər Məmməd oğlu 1951-ci il sentyabr ayının 27-də İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndində anadan olmuşdur. Kənd səkkizillik məktəbi bitirdikdən sonra vaxtilə böyük ədib Cəlil Məmmədquluzadənin dərs dediyi Uluxanlı (Zəngibasar) orta məktəbini bitirmişdir.1974-cü ildə APXDİ-nin fransız dili fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində oturub birgə söhbət edəndə mütaliə etdiyi kitablardan mənə danışardı. Əsgər söhbət əsnasında mənə deyərdi ki, yay tətili, yaxud istirahət günlərində 5-6 kitab götürüb təbiətin qoynuna gedər və bütün günü kitab oxuyardı. Yalnız axşamüstü evə qayıdardı. O, tələbəlik illərində də çoxlu mütaliə edirdi. Təzə

hansı kitab nəşr olunurdusa onu alıb oxuyardı. Tələbələr Əsgəri soruşanda deyirdik ki, birinci kitabxanaya baxın. Mən Əsgərlə tələbə yoldaşı olmuşam və sonra yenə birlikdə bir kafedra da həmkar kimi çalışmışıq. Onun çalışqanlığı elmdə böyük nailiyyətlər qazanmağa stimul verib. Mən bu səmimi, qayğıkeş, xeyirxah insan, sözün əsl mənasında böyük alim və tədqiqatçı olan professor Əsgər Zeynalov haqqında öz ürək sözlərimi , həmçinin onun yüksək insani keyfiyyətləri barədə söhbət açmaq istəyirəm. Bunu yazmaq məni məmnun edir, çünki mən Əsgər müəllimi gənclik illərindən tanıyıram. Onunla bir qrupda təhsil almışam, həm də dostu olmuşam. Biz 169-cu qrupda təhsil alanda o, öz səmimiyyəti,mehribanlığı ilə seçilirdi. Əsgər tarix, ədəbiyyat və dil dərslərində çox fəal olurdu, müəllimlərə maraqlı suallar verir və onu düşündürən bir çox məsələlərə aydınlıq gətirməyə çalışırdı. O, dərslərdə çox zaman müəllimləri heyrətləndirməyi bacarırdı. Məsələn, yaxşı xatırlayıram ki, bizə Azərbaycan tarixindən dərs deyən Tərlan müəllimin dərsində Əsgər Midiya dövləti, Atabəylər sülaləsini xronoloji ardıcıllıqla elə sadalamışdı ki, hətta Tərlan müəllim onun cavabına təəccüblənmiş və məmnun qalmışdır.

Əsgər Azərbaycan musiqisini və muğamlarını çox sevirdi. O, Qulu Əsgərov, Əlibaba Məmmədov, Süleyman Abdullayev, Rübabə Muradova, Elmira Rəhimova, Teymur Mustafayev, Nəzakət Məmmədovanın konsertlərinə müntəzəm olaraq gedirdi. O, ən çox Sabir Mirzəyevin "Çahargah"ına, xüsusilə "Bəstə -Nigar" şöbəsinə qulaq asmağı sevərdi. Çox vaxt Əsgər evdə tapılmayanda bilirdilər ki, Əsgər çox güman ki, ya "Leyli və Məcnun"a baxmağa, ya da Sabir Mirzəyevin konsertinə gedib. Əsgər "Leyli və Məcnun", "Əsli və Kərəm", "Gəlin Qayası" və "Şah İsmayıl" operalarına həvəslə baxardı. O, həmçinin Dram teatrının və Musiqili komediya teatırının tamaşalarına da həvəslə gedirdi. Bir dəfə qrupda tələbə qızlardan biri Fəxrəndə Balayeva Əsgər

haqqında bildirdi ki, Əsgər çox savadlıdır və gələcəkdə böyük alim olacaq. Əsgərin işıqlı gələcəyi ,gənclik çağından çoxumuza aydın idi. O, boş vaxtlarında kitabxanalara gedərdi, tez-tez o, M.F.Axundov adına kitabxanaya gedir, orada dünya yazıçılarının əsərlərini mütaliə edirdi. Tələbə vaxtları da çoxlu kitablar alırdı. Bir haşiyə çıxmaq istəyirəm. Dəqiq bilirəm ki, onun evində hal-hazırda zəngin kitabxanası var və burada dünya ədəbiyyatından və Azərbaycan ədəbiyyatından saysız-hesabsız kitablar var.

Əsgər həm də xeyirxah, qayğıkeş, səmimi bir insandır.Mən bunu ilk illərdə hiss etmişəm. O, tələbəlik çağından çətinlikdən və maneələrdən qorxmurdu, hətta xəstəlikdən də qorxmur, mübarizə aparmağı bacarırdı. Tələbə vaxtı Əsgər yataqxanada qalırdı, onunla bir otaqda başqa bir kursda oxuyan Gülağa Atakişiyev adlı tələbə yoldaşı qalırdı. O, mənə danışmışdı ki, bir gün biz Əsgərlə möhkəm xəstələnmişdik, soyuqlamışdıq. Mən ağrılardan şikayət edirdim. Bu vaxt qəfildən, gözlənilmədən Əsgər ayağa durdu və yumruğunu stola vurdu və dedi ki, mən xəstə deyiləm. Onun belə özünə güvənli olmağı mənə də güc verdi və mən də ayağa durdum, biz tezliklə sağaldıq.

Bir məsələni də xatırlatmaq istəyirəm ki, o vaxt bizə dərs deyən müəllimlərin arasında xarici vətəndaşlar da vardı. Bu ənənə elə indinin özündə də davam edir. Yadıma gəlir ki, bizə fransız ədəbiyyatından bir gənc fransız xanımı dərs deyirdi. Onun adı səhv etmirəmsə, Elen Vazel idi. O, bizə fransız ədəbiyyatından, yazıçı və şairlərdən mühazirələr oxuyurdu. Dəqiq yadımdadır ki, Əsgər bir dəfə ədəbiyyat dərsində həmin xanıma fransız və eləcə də dünya ədəbiyyatının nəhəng yazıçıları Hüqo və Volterdən suallar vermişdir. Bu suallar çox məntiqli və düşündürücü olduğuna görə xanım Vazelin xoşuna gəlmişdir. Xanım Vazel onun sullarına aramla cavab verib, diqqətli və çalışqan olduğuna görə Əsgərə xüsusi minnətdarlıq etmişdir. Bir dəfə Əsgər dərsdə Elen Vazeldən soruşdu ki, sizcə fransız ədəbiyyatında ən böyük

yazıçı kimdir? O, belə cavab verdi: Stendal. Əsgər dedi ki, bəs Hüqo? Elen Vazel belə cavab verdi: Fransada deyirlər ki, Hüqo fransız ədəbiyyatının milyarderi, Stendal isə şahıdır. Sonralar bu dialoq Əsgərin monoqrafiyalarında öz əksini tapdı, O, Hüqo haqqında kitablardan birinin adını belədə adlandırdı: "Hüqo-fransız ədəbiyyatının milyarderi".

Mən həmçinin tələbəlik illərində onun necə fəal ictimaiyyətçi və təbliğatçı olduğunu görmüşəm. O, tələbə yoldaşlarına Azərbaycan filmlərinə və tamaşalarına baxmağı təbliğ edirdi, özü də tez-tez bu filmlərə və tamaşalara baxmağa gedirdi. O, tələbə inşaat dəstəsində də çox fəal iştirak etmişdir. Əsgər demək olar ki, bir ay yarım inşaat dəstəsində işləmişdir və xüsusi mükafata layiq görülmüşdür. Hələ tələbəlik illərində müntəzəm olaraq respublika qəzetlərini oxuyur və gündəlik mətbuatla maraqlanırdı. Əsgər tez-tez qəzetlərdə dərc olunan məqalələr barədə fikir bildiridi. Qəzetlərdə daha çox tarixə, ədəbiyyata və dilçiliyə aid olan məqalələri axtarıb tapır, onları həvəslə oxuyurdu. Fikir verirdim ki, Əsgər aldığı təqaüdün çox hissəsini kitablara və qəzetlərə həvəslə xərcləyirdi və daim mütaliə ilə məşğul olurdu. Elə bu mütaliələr sonralar onun elmdə nailiyyətlər qazanmasına və hərtərəfli savadlı olmasına təsir etdi. Biz tələbə olarkən dərslərimizi 1 May küçəsindəki üçmərtəbəli binada keçmişik, indi hal-hazırda bu bina qəzalı vəziyyətdədir və istifadəyə yararsızdır. O vaxt "Nizami" kinoteatrı bizim dərs oxuduğumuz binaya çox yaxın idi. Bəzən elə olurdu ki, Əsgər qrup yoldaşlarına deyirdi ki, kinoteatrda Azərbaycan xalqının tarixi qəhrəmanlığından bəhs edən yaxşı filmlər nümayiş etdirilir. Əsgər uşaqları belə maraqlı filimlərə baxmağa dəvət edirdi. Tələbə yoldaşlar ona qoşulub belə filmlərə baxmağa gedirdilər və filmdən yaxşı zövq alırdılar. Sonra biz Əsgərlə birlikdə bu filmləri müzakirə edirdik, bu da tələbələrin milli vətənpərvərlik ruhunda tərbiyə almasına kömək edirdi.

Məndə olan məlumata görə Əsgər hələ orta məktəbdə oxuyanda iti hafizəyə, yaddaşa malik olmuşdur. Orta məktəbdə oxuyarkən əsl savadlı şagird olduğunu və onun böyük gələcəyi olacağına həm müəllimləri, həm döğmaları, həm də doğulub boya-başa çatdığı kənd camaatı böyük ümid edirdilər və buna inanırdılar. Çünki Əsgər çox vaxt dərslikləri və əlavə kitabları özü ilə götürər və saatlarla təbiətin qoynunda bu kitablarla baş-başa qalardı. Beləliklə o, oxuduğu kitabların dərinliklərinə baş vuraraq onların sirlərinə yaxından bələd olurdu. Əsgər hələ orta məktəbdə oxuyanda şeirlər yazırdı.Onun 5-ci sinifdə oxuyarkən yazdığı "Balaca şair" şeirini demək olar ki, bütün sinif yoldaşları əzbər bilirdi və onu hamısı "şair" deyə çağırırdılar.7-ci sinifdə oxuyanda onun 9 şeiri məktəbin divar qəzetində öz əksini tapmışdı.

Əsgər müəllim, elə insandır ki, heç kimə əziyyət verməyi xoşlamır. Belə ki, ali məktəbdə oxuyarkən gedib tələbə yataqxanalarında və yaxud kirayə evlərdə qalmış, amma şəhərdə yaşayan əmilərinin evlərində qalıb onlara əziyyət vermək istəməmişdir. Şəhərdə yaxşı həyat təcrübəsi əldə etdi, bu təcrübəni əldə etməkdə əmiləri ona çox kömək etdilər və dəstək oldular. Ona görə də heç kim ona mənfi təsir göstərə bilməmişdir. Özü isə yaxınlarının və dostlarının əziyyətini çəkməyə, təmənnasız olaraq insanlıq xatirinə yaxşılıq etməyə hazır olan bir insandır.

Əsgər 1969-cu ildə orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Pedaqoji institutunun filologiya fakültəsinə vermişdir. Bütün imtahanlardan keçsə də, lazımi bal toplaya bilmədiyi üçün, instituta qəbul ola bilməmişdir. Bundan sonra o, Azərbaycan Xarici Dillər institutunun hazırlıq şöbəsində oxumuşdu. Orada oxuyarkən yenicə müdafiə etmiş Adil Babayev (sonralar o, elmlər doktoru, professor oldu), Əlimuxtar Ağayev (sonralar o, elmlər namizədi dosent kimi bizimlə eyni kafedrada çalışdı) dərs deyir. Hazırlıq kursu Əsgərin hafizəsində

xoş xatirə kimi qalmışdı. Adil müəllimin Füzulinin "Leyli və Məcnun"undan böyük bir hissəni, Səməd Vurğunun "Vaqif" dramını əvvəldən sonadək əzbər deməsini Əsgər bu gün də dönə-dönə xatırlayır. Onu da diqqətə çatdırmaq lazım gəlir ki, Əsgər hələ orta məktəbin 9-cu sinfində təhsil alarkən onun ədəbiyyat müəllimi Rəfiqə müəllimənin hazırladığı tədbirdə Səməd Vurğunun "Vaqif" dramında həm İlyas, həm də Vidadi, Salam Qədirzadənin "Şirinbala bal yığır" əsərində institut müəllimi, professor rolunu oynamışdır.

Əsgərgilin kəndində məktəb səkkizillik olduğu üçün, o, 9-10-cu sinifləri rayon mərkəzində-Zəngibasarda oxumuşdu. Əsgər Zəngibasar məktəbindən danışarkən həmişə deyir ki, o zaman bu məktəbdə oxumaq ali məktəbdə oxumaqdan çətin idi. Çünki ətraf beş kənd məktəbinin ən yaxşı oxuyan şagirdləri yuxarı sinifləri davam etdirmək üçün bu məktəbə gəlirdilər. 9-cu sinifə təxminən 110 şagird gəlirdi, 10-cu sinifə 60 şagird ancaq qalırdı. Çoxu oxuya bilməyib çıxıb gedirdi.

Əsgər "Şirinbala bal yığır" əsərinin tamaşası ilə bağlı maraqlı bir epizod danışır: "Ədəbiyyat müəllimimiz Rəfiqə Abbasova Salam Qədirzadənin "Şirinbala bal yığır" əsərini tamaşaya hazırlayarkən 10-cu sinif şagirdləri Müslüm və Gültəkin Şirinbalanın atası və anası rollarını, bibim oğlu Cavidə sürücü və mənə isə inistitut müəllimi, professor rolunu tapşırdı. Tale elə qismət etdi ki, Müslümlə Gültəkin ailə qurdu, bibim oğlu sürücü, mən isə institut müəllimi, professor oldum. Sanki ulu Tanrı bizim qismətimizi o zaman müəyyənləşdirmişdi".

1974-cü ildə biz ikimiz də ali məktəbi bitirdik. Mən təyinatımı Qubadlı rayonuna aldım və orada işləməyə başladım. Məni indi də bir hiss, bir fikir həmişə incidir ki, o cür füsünkar gözəlliyi və təbiəti olan bir rayon mənfur düşmənlərin tapdağı altında qalmışdır. Amma Əsgər oz təyinatını Dağlıq Qarabağa aldı və təxminən bir il orada işlədi.  Orada işləyərkən də çox fəal olmuşdur,

öyrəndiyi fransız dilini böyük sevgi ilə məktəb şagirdlərinə öyrədir və bundan xüsusi zövq alırdı.

Əsgər Dağlıq Qarabağda Ağdərə rayonunun Manikli və Xatınbəyli kəndlərində işləyərkən, nə qədər təəccüblü olsa da fransız dili ilə yanaşı kimya dərsini də tədris etmişdi. Bir dəfə dərs hissə müdiri gəlib Əsgərin dərsini dinləyir. Əsgər isə heç bir qeydiyyata baxmadan reaksiyaları aparır, əmsalları düzəldir. Dərsin müzakirəsindən sonra tədris hissə müdiri Əsgərə deyir: "Kimya müəllimimizi ancaq tapmışıq, səni heç yana buraxan yoxdu". Əsgər isə deyir ki, bunun üçün Yuxarı Necili kənd məktəbində və Uluxanlıda mənə dərs demiş kimya müəllimlərimə borcluyam. Fətullah Süleymanova və Hüseyn Həsənova. Bir il orada işlədikdən sonra öz doğma kəndinə qayıdır, həm bitirdiyi Yuxarı Necili kənd orta məktəbində, həm də qonşu Dəmirçi kənd orta məktəbində fransız dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

Haşiyə: Əsgər Zəngibasar (Uluxanlı) rayonunun Dəmirçi kənd orta məktəbində müəllim işləyərkən bir gün dərsini demək üçün sinif otağına daxil olub lövhədə "Ətalət" yazıldığını görüb deyir: "Kim deyər: ətalət nəyə deyilir? Kim desə "5" yazacam". Şagirdlərdən Fatma adında bir qız əlini qaldırıb cavab vermək istədiyini bildirir. O, uzun bir tərif deməyə başlayır. Əsgər deyir: "Bu nədir? Əyləş!" Bu zaman yerdən səs gəlir: "Guya özü bilir ha!! Əsgər bunu eşidib deyir: "Kimdir o sözü deyən, ayağa qalxsın". Həmin şagird səsini çıxarmır. Əsgər yenidən deyir: "Kimdir o sözü deyən, ayağa qalxsın, qorxmasın". Uca boy bir oğlan ayağa qalxıb "mənəm" - deyir. Əsgər Nyutonun qanunun üçünü də əzbər söyləyir, işarələri də qeyd etdikdən sonra, həmin oğlan "Zalım oğlu doğurdan da kəllədir" sözlərini yavaşca söyləyərək yerində əyləşir. Bu zaman Əsgərin 24 yaşı vardı...

Gənc müəllim kimi tez bir zamanda böyük hörmət qazandı. Qonşu kənddə bütün ailələrdə gənc fransız dili müəlliminin

necə gözəl dərs deməyindən, necə ağır təbiəti olduğundan danışılırdı. Bir il işlədikdən sonra hərbi xidmətə çağırılır.Ulan-Ude şəhərində hərbi xidmətdə olarkən belə şagirdləri onu unutmur, öz sevimli müəllimlərinə məktub yazırdılar. Hərbi xidmətdə olarkən onun haqqında hərbi dairənin qəzetində məqalə dərc olunur. Hərbi xidmətdə də vaxt tapan kimi mütaliə və tərcüməçiliklə məşğul olurdu. Hərbi xidməti başa vurduqdan sonra da öz oxuduğu məktəbdə pedaqoji fəaliyyətini davam etdirdi.

Bu dövrdə artıq onun elmi fəaliyyəti başlandı. İş elə gətirdi ki, professor Teymur Əhmədov və mərhum professor Mirəli Seyidov Əsgərin elmi rəhbərləri oldular. O, çox maraqlı və bu gün üçün də tarixi əhəmiyyət kəsb edən elmi əsər işlədi və bu əsərin adı "Azərbaycan bayatıları erməni qaynaqlarında" adlanırdı. Təxminən 10 il erməni arxivlərində araşdırmalar apardı, gözəl bir dissertasiya ortaya çıxartdı. Əsgər erməni mənbələrində tədqiqat aparan sonuncu Azərbaycanlı oldu. Həmin arxivlərdə ermənilərə məxsus olduğu hesab edilən 550 bayatının məhz bizə məxsus olduğunu, ümumiyyətlə, ermənilərin hec vaxt bayatıları olmadığını dəlillər gətirərək sübut etdi.

1988-ci ildən deportasiya olunduqdan sonra Əsgər Abşeron rayonunun Xırdalan qəsəbəsində məskunlaşdı. Bu dövrdə Dağlıq Qarabağla bağlı münaqişələr və müharibə başlandı. Həmin ərəfədə Əsgərin böyük zəhməti bahasına başa gətirdiyi bu elmi işi müxtəlif bəhanələrlə müdafiəyə buraxılmırdı. Hətta həmin elmi işin təsdiq edilməsi üçün Moskvaya və Ermənistan Elimlər Akademiyasına müraciət olunmuşdur. Qəribə də olsa Ermənistan Elimlər Akademiyası bu müraciətə müsbət cavab verdi. Bu dəfə növbəti bəhanə mövzunun adının dəyişdirilməsi oldu. Mövzu "Azərbaycan bayatıları Qafqaz regionunda" adlandırıldı. Əsgər müəllim mövzunun adını əhatə etmək üçün yenidən arxivlərə, kitabxanalara üz tutmalı oldu. Nəhayət o 1991-ci ilin noyabrında namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi.

Mənə elə gəlir ki, Əsgər müəllim bu dissertasıyanı yazmaqla böyük vətənpərvərlik göstərmişdir, ona görə ki, o, heç nədən çəkinmədən, qorxmadan mənfur düşmənlərimiz olan ermənilərdən Azərbaycan xalqına məxsus olan bayatıları onlardan almış və subut etmişdir ki, bu bayatılar Azərbaycan xalqına məxsusdur.

Ermənistandan deportasiya olunduqdan sonra o, bir neçə ay işsiz qaldı. Bir təsadüf, eyni zamanda səmimi, qeyrətli insan Qorxmaz müəllimin xeyirxahlığı nəticəsində APXDİ-na laborant vəzifəsinə işə düzəldi. Sonradan o bu universitetdə pillə-pillə ucalmağa başladı. Əvvəlcə müəllim, sonra baş müəllim, dosent, kafedra müdiri, filologiya elmləri doktoru professor oldu.

Bir dəfə belə bir hadisə olmuşdur, mən fransız dilinin üslubiyyəti kafedrasında baş müəllim işləyirdim, Əsgər müəllim isə Praktik fransız dili kafedrasına yenicə müdir seçilmişdi. Məndə növbəti beşillik seçki idi. Təcili şəkildə elmi işlər üçün məqalə lazım oldu,onun yanına getdim. Çox mehribanlıqla məni qəbul etdi. Əsgərə dedim ki, mənə təcili olaraq seçkim üçün məqalə nəşr etdirmək lazımdır. O,mənə dedi ki, heç narahat olma mən sənə kömək edəcəyəm. Sən sabaha bir məqalə hazırla  və sabah biz birlikdə nəşriyyata gedərik. Elə də oldu, axşama qədər bir məqalə hazırladım və səhərisi gün nəşriyyata getdik. Onunla birlikdə məqaləni nəşrə verdik.

Mən bu universitetdə 42 ildən çoxdur ki, işləyirəm və 15 ilədək onunla bir kafedrada işləmişəm. O, Praktik fransız dili kafedrasının müdiri, mən isə həmin kafedranın baş müəllimi idim. Əsgər müəllim kafedrada bütün müəllim və laborantlara qarşı diqqətli və qayğıkeş idi. Yaxşı yadımdadır bu kafedrada işləyərkən, orada Abbasova Gülnarə adında baş müəllim vardı. O, böyrək çatışmazlığından əziyyət çəkirdi və tez-tez dializə gedirdi. O, müalicə xərclərini ödəməkdə çətinlik çəkirdi. Bu vaxt Əsgər xeyirxahlıq göstərib ona kömək etdi. Belə ki, müəllimlərin

adına növbə ilə həmkarlar təşkilatına ərizələr yazdırır və alınan pulları müalicəyə kömək məqsədilə ona verirdi.

Yaxşı xatirimdədir, Əsgər müəllim kafedrada iclasları çox yüksək səviyyədə keçirirdi. Həmişə istəyirdi ki, müəllimlər iclasda çıxış etsinlər və öz fikirlərini, təkliflərini bildirsinlər. Hər bir iclasda Əsgər müəllim müəllimlərin qazandığı uğurları xüsusi qeyd edib müəllimlərə daha yaxşı işləmək üçün stimul verirdi. Hansı müəllimin kitabı, məqaləsi nəşr olunurdusa Əsgər müəllim iclasda həmin kitabı və ya məqaləni kafedranın bütün müəllimlərinə göstərər, həmin müəllimi ürəkdən təbrik edərdi. Belə məqamlarda görürdüm ki, bu adam o qədər ürəkdən sevinir ki, sanki bu uğurlar onun özünə məxsusdur. Hərdən elə olurdu ki, mənə zəng edib deyirdi ki, sənin üçün əlavə saathesabı dərs ayırmışam həmin dərslərin cədvəlini götürə bilərsən, narahat olma həmişə sənin yanındayam. Bir dəfə mənə zəng etdi və dedi ki, Bakı Asiya universitetində saathesabı dərs var, yaxşı da maaş verirlər, mən istəyirəm ki, bu dərsləri sən deyəsən. Sözün doğrusu tərəddüd etdim. Mənə bir də zəng etdi və yenə mənim ora getməyimi istədi və təkid etdi. Mənə bildirdi ki, bu işi ona təklif ediblər, lakin kafedra müdiri olduğuna görə boş vaxt demək olar ki olmur, tez-tez iclaslara, elmi şuralara, tədbirlərə gedirəm vaxtım qalmır. O, bu işi mənə məsləhət bildi. Səhəri gün mənimlə birlikdə Asiya universitetinə getdi və məni prorektora təqdim edib dedi ki, Rafiq müəllim mənim kafedramın ən yaxşı müəllimlərindən biridir, gözəl tərcüməçidir, burada yüksək səviyyədə dərsləri  tədris edəcək.

Bir gün Maştağada yaxın qohumumun yas məclisində əyləşmişdik. Məclis bitdikdən sonra atam Əsgərlə həyətdə alma ağacının altında xeyli söhbət etdilər. Məclisdən sonra biz dünyadan köçənlərimizin ziyarətinə getdik. Orada Əsgər öz əmisinin məzarınıda ziyarət etdi .Biz məclisdən sonra evə qayıtdıq. Atam əlini mənim çiynimə qoyub dedi ki, oğul özünə etibarlı dost qazanmısan.

Adam var atasının qəbrinin üstünə getmir, o, əmisinin qəbrini ziyarət edir. Mən inanıram ki, sizin dostluğunuz əbədi olacaq, Əsgərə güvənə bilərsən, o, həqiqətən əsl dost və etibarlı insandır. İllər atamın sözlərinin gerçək olduğunu sübut etdi.

Bütün bunlarla bərabər Əsgər müəllim həm də vətənpərvər insandır, o, bütün varlığı ilə elinə, obasına, millətinə bağlıdır. 1990-cı illərdə müharibə gedərkən ön cəbhədə döyüşən əsgərlərimizlə görüşmək üçün universitetimizin bir neçə tələbə və müəllimi ilə birlikdə Murova, Tərtərə, Ağdərəyə, cəbhə bölgələrinə getmiş, üç gün orada əsgərlərimizlə birlikdə olmuşdur. Əsgər müəllim cəbhədə yaralanan və şəhid olan döyüşçülərimiz barədə 100-dən çox məqalə yazmış, gəncləri belə vətənpərvər olmağa çağırmışdır. O, şəhid Bəxtiyar haqqında material toplamaq üçün Gəncəyə getmişdir, onun ailə üzvləri ilə görüşmüş dəyərli məlumatlar toplamışdır. Əsgər müəllim öz övladlarına da vətənpərvərlik hisslərini aşılamışdır. Hələ uşaqları məktəbə getməyəndə belə 20 Yanvar günlərində Əsgər müəllim səhər tezdən uşaqları ilə Şəhidlər xiyabanına gedər və onların məzarları üstünə qərənfillər qoyardılar.

2001-ci ilin noyabr ayında İrəvanda keçirilən "Cənubi Qafqazda təhsil problemi" mövzusunda Beynəlxalq konfransa Azərbaycandan da nümayəndələr göndərilməli idi.Həmin konfransa yalnız bizim Universitetin müəllimlərndən getməli idi. Universitetdən Əsgər müəllim və Məhəmməd müəllim nəzərdə tutulmuşdu. Əsgər müəllim bu xəbəri eşidəndən sonra heç bir tərəddüd etmədən öz sənədlərini hazırlamağa başladı və sonra konfransa yola düşdü. O, heç bir qorxu bilmədən konfransda iştirak etdi və orada Vətənimizi mənfur düşmənlərimizin qarşısında ləyaqətlə təmsil etdi.

Sözün düzü, mən Əsgər müəllimi böyük tarixçi, ədəbiyyatçı və tədqiqatçı olmağına hələ tələbəlik illərindən şübhə etmirdim. Amma mən onun dünya şöhrətli, tədqiqatçı alim olacağına,

hətta aparmış olduğu öz elmi tədqiqat işləri ilə böyük fransız alimlərini belə təəccübləndirəcəyini təsəvvür etmirdim. Mən bunu təsadüfən demirəm, dəqiq bilirəm ki, o fransız alimlərinin belə ehtiyat etdikləri və böyük ehtiram bəslədikləri, təkcə fransız ədəbiyyatının deyil, dünya ədəbiyyatının böyük klassikləri olan Volter və Hüqonu elə tədqiq etmişdir ki, onlar haqqında elə sanballı monoqrafiyalar yazmışdır ki, hətta fransız alimləri özləri də təəccüblənmişlər. Bir neçə il bundan əvvəl Əsgər müəllim Fransada olarkən fransız ədəbiyyatına aid böyük bir konfrans keçirilirdi, o da həmin konfransda iştirak edirdi. Bu vaxt ona söz vermişdilər, o, konfransda çox gözəl çıxış etmişdir. Dünya ədəbiyyatının klassikləri Hüqonu və Volteri fransızların qarşısında çox dəqiq araşdırmış və təhlil etmişdir. Bu vaxt tədbirin sədri ayağa durub ona demişdir ki, zəhmət olmasa gəlin mənim yerimdə əyləşin, çünki siz mənim yazıçılarımı məndən yaxşı təhlil edirsiniz və onlara dərindən bələdsiniz.

Lakin bu səviyyəyə gəlib çatmaq Əsgər müəllim üçün o qədər də asan olmamışdır. O elmin çox ağır və əziyyətli yollarından keçmişdir. Əsgərin Yuxarı Necili kənd orta məktəbndə yandırdığı "şam"ın işığı hələ çox gənclərin yoluna nur salacaq. Öz elindən, yurdundan, doğma Necili kəndindən ayrı düşmüşdür, lakin onun yazdığı məqalə və kitablarda doğma torpağın nisgili, ayrılığı həmişə hiss olunmuşdur. "Hara gedir bu qatar?" kitabında doğma torpağın, Vətən ayrılığının, nisgilini çox kövrəkliklə qələmə almışdır.

Ə.Zeynalov 1991-ci ildə "Azərbaycan bayatıları Qafaz regionnunda" mövzusunda namizədlik, 2003-cü ildə "Fransız ədəbiyyatında Şərq motivləri" (Volterin yaradıcılığı üzrə) doktorluq dissertasiyasını müdafiə etmişdir, 2005-ci ildən professordur. Beş il namizədlik, 7 il doktorluq dissertasiyası müxtəlif bəhanələrlə dayandırmışdı.

Haşiyə: 1995-ci ildə Əsgər iki illik doktorluq məzuniyyətinə çıxmaq istəyirdi, ancaq alınmadı. Səbəb ödəniləcək maaşın aşağı olması idi. O, doktorluq dissertasiyasını sakit bir tərzdə işləyirdi, heç kimin xəbəri yox idi. Kafedra iclasında bu məsələ qoyulanda hamının bu işdən xəbəri oldu. O zaman bizimlə işləyən dosent Sevda Vahabova dedi ki, Əsgər müəllim, siz inanırsınız ki, doktorluğu müdafiə edəcəksiniz? Əsgər çox klassik bir cavab verdi: "Özümə inanmasaydım bu işə girişməzdim". Həyat dissertasiyanı 7 il uzatmağıyla Sevda xanımın nə demək istədiyini, nəhayət, müdafiə etməsi və diplomunu almağı Əsgərin nə dərəcə də iradəli olmağını əsaslı surətdə təsdiq etdi.

O, namizədlik dissertasiyası üçün material toplayarkən çox əziyyətlərə qatlaşmışdır. İllərlə Ermənistan Əlyazmalar inistitutuna-Matenadarana müraciət etmişdir, oradan təxminən 550 Azərbaycan bayatıları əldə etmişdir və bu bayatıların Azərbaycan xalqına aid olduğunu sübut etmişdir. O dövrdə milli zəmində toqquşmalar olan vaxt Əsgər müəllim öz həyatını təhlükə altına qoyaraq Ermənistan Əlyazmalar inistitutunda işləmiş, müxtəlif maneələrlə rastlaşmışdır. Bir dəfə orada işləyərkən inistitutun işçilərindən biri ondan soruşmuşdur ki, sən Azərbaycan bayatılarını niyə axtarırsan? Əsgər müəllim ona cavab vermişdir ki, mən sübut edəcəm ki, bu bayatılar Azərbaycanlılara məxsusdur. Sonra həmin erməni Əsgər müəllimə iş prosesində müəyyən problemlər yaratmış və ona mane olmağa çalışmışdır.

Onun ilk mərhələdə namizədlik dissertasiyası "Azərbaycan bayatıları erməni qaynaqlarında" adlanırdı. Lakin bir neçə il dissertasiyanı müdafiyəyə buraxmadılar. Erməni sözünə görə onu qəbul etmədilər. Sonra Əsgər müəllim öz elmi rəhbərləri ilə məsləhətləşərək dissertasiyanın adını dəyişərək "Azərbaycan bayatıları Qafqaz regionunda" qoydu. 1991-ci ildə dissertasiyanı uğurla müdafiə etdi.

Artıq Əsgər müəllim elmdə böyük bir məşəl yandırmışdır. Bu məşəlin işığı yüzlərlə tələbənin, magistrin, dissertantın, aspirantın elm aləmində yoluna nurla dolu işıq saçır. Baxmayaraq ki, o , həyatda, elmdə böyük çətinliklərə dözmüşdür. Hal-hazırda o bütün aspirantlarına və dissertantlarına böyük qayğı və ümidlə yanaşır.

Əsgər müəllim öz kafedrasında çalışan müəllimləri kitab, məqalə yazmağa həvəsləndirirdi. İlk kitabımı yazmağı da məni məhz Əsgər müəllim ruhlandırmışdı. Mənə bildirdi ki, sənin çox güclü qələmin var və yaxşı kitablar yazacaqsan. 2004-cü ildə ilk kitabım nəşr olunanda Əsgər müəllim kafedrada bu kitabı kollektivə təqdim etdi və bunun ardıcıl olmağını arzuladı. Elə bu minvalla da ardıcıl olaraq hər il bir kitab nəşr elətdirdim.

Əsgər bütün varlığı ilə elmə bağlı insandır. Söhbət əsnasında mənə Uluxanlı kənd orta məktəbini bitirən görkəmli ziyalılar barədə və həmçinin yazmış olduğu məşhur "İrəvan ziyalıları" kitabının necə ərsəyə gəlməsi barədə danışırdı. Bunları elə həvəslə, elə ürəklə danışırdı ki, ona saatlarla qulaq asmaqdan yorulmurdum.

Əvvəlki illərdə universitetimizdə hər il qış və yay semestri qurtaranda müəllimlərin boş vaxtlarının səmərəli keçməsi məqsədilə nərd, dama və şahmat yarışları təşkil olunurdu. Əsgəri bu yarışlarda görmək mümkün deyildi. Nə zaman zəng edib əlaqə saxlasan, onu ya hər hansı məqalə, ya da bir kitab üzərində çalışdığını bildirərdi. O, həqiqətən əsl elm adamıdır. Mənə elə gəlir ki, professor Zeynalov Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun layiqli sələfidir, çünki M.F.Axundov öz kəlamlarında yazırdı: "İnsan elm ardınca getməlidir və hər yerdə elmi yaymağa çalışmalıdır". Bəli Əsgər müəllim həmişə elm ardınca getmişdir və olduğu hər yerdə elmi yaymağa çalışmışdır.

Əsgər müəllim həmçinin 14 il ADU-nun Tələbə Elmi Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. Universitetin tələbələrini

elmi konfranslara hazırlayırdı və hər il tələbələr bu konfrans- larda yaxşı yer tuturdular. Məhz bunun nəticəsi idi ki, Azər-baycan Dillər Universitetinin tələbələri başqa universitetin tələ- bələrindən fərqli olaraq Respublika TEC üzrə ikinci yerə layiq görülmüşdülər.

Əsgər müəllim respublikamızda daha çox "İrəvan ziyalıları" kitabı ilə tanınmışdır. Bu kitab ona böyük uğur gətirmişdir. Kitabın yazılmasının maraqlı bir tarixçəsi vardır. Belə ki, hələ orta məktəbdəçalışarkən yaşlı müəllimləri İrəvanda Mirzə Hüseyn Ağa adlı böyük bir şərqşünas alimin yaşaması barədə söhbətlər edirdilər, ancaq onun heç bir əsərinin qalmadığını, hətta onun dəfələrlə Moskva, Sankt-Peterburq universitetlərinə dəvət olunduğunu, amma onun doğma şəhəri İrəvanı tərk etmədiyini söyləyirdilər.

Əsgər müəllim Bakıya gəldikdən bir neçə ay sonra MirzəHüseyn Ağanın övladlarının Bakıda yaşadığını öyrənib Binə, Bil-gəh kənd və sanatoriyasına,Yer Quruluşu institutuna üz tutur,onun övladları ilə görüşür. Nəhayət iki illik axtarışdan sonra"Mirzə Hüseyn Ağa" adlı yazını Əsgər müəllim "Vətən səsi" qə-zetinə təqdim edir. Qəzetin o zamanki redaktoru, professorTeymur Əhmədov həmin iri həcimli yazını 1991-ci il iyulun 14-də "İrəvan ziyalıları" adı altında nəşr etdirir. Bundan sonra Tey-mur müəllim Əsgəri bu sahəyə istiqamətləndirir. Nəhayət 15illik ciddi axtarışlardan sonra bu kitab ərsəyə gəlir. "İrəvan ziya-lıları" söz birləşməsi professor Teymur Əhmədovun tapıntısıdır.Bu kitabı ərsəyə gətirərkən Əsgər müəllim min kilometrlərləməsafə qət etmişdir. Nə qədər insanlarla görüşmüş, Azərbayca-nın müxtəlif bölgələrinə və müxtəlif şəhərlərinə getmişdir.Həmin insanların evlərində olarkən onların şəxsi arxivlərindənmüxtəlif materiallar götürmüş, oxumuş və öz kitabında onlaraistinad etmişdir. Moskva arxivlərinin sənədləri ilə tanış olmuş vəmüəyyən dərəcədə onlardan faydalanmışdır.